**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

8 avqust 2026-cı il | №29 (9182) | www.muallim.edu.az | muallim@media.edu.az


# "Universitetlərdə insan gənclik həyatını yaşayır"

"Universitetlərdə insan gənclik həyatını yaşayır. Mən sizə deyə bilərəm ki, bu, insanın həyatının ən gözəl bir hissəsidir. Mən arzu edərdim ki, bizim hər bir gənc, hər bir tələbə, bax, bu dövrü uğurla keçsin. Çünki bu dövrdə gəncin formalaşması, onun lazımi bilik alması, lazımi mənəvi dəyərləri dərk etməsi, milli dəyərləri dərk etməsi, müasir dünyanı dərk etməsi onun gələcəyinin əsasıdır, təməlidir. Əgər bu təməl gənclik dövründə, xüsusən, ali məktəblərdə qoyulmasa, birincisi, gələcəkdə bizim gənclər böyük çətinliklərlə rastlaşacaqlar və ikincisi, gələcək nəsillərin istədiyimiz səviyyəyə qalxması çətin olacaqdır. Ona görə də, əziz övladlarımız, siz bilin, mən həyatın bütün mərhələlərini keçmiş bir adam kimi, arxaya baxaraq, hər dövrü təhlil edərək, həyat təcrübəsi olan adam kimi sizə deyirəm: bu illəri boş keçirməyin, bu illəri itirməyin. Öz fiziki sağlamlığınıza fikir verin. Onun üçün də gərək siz sağlam həyat tərzində yaşayasınız. Çalışın, maksimum bilik alın. Siz təkcə müəllimlərin verdiyi biliklə kifayətlənməyin, başqa bütün ədəbiyyatla da tanış olun və yüksək mənəvi dəyərlər əsasında yaşayın".



## "Mən arzu edərdim ki, bizim hər bir gənc, hər bir tələbə, bax, bu dövrü uğurla keçsin"

Ümummilli Lider Heydər Əliyevin ali məktəblərə ən yüksək balla qəbul olunmuş gənclərlə görüşündəki nitqindən *(3 sentyabr 2001-ci il)*

## Azərbaycanla Tacikistan arasında təhsil sahəsində saziş təsdiqlənib



"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Tacikistan Respublikasının Təhsil və Elm Nazirliyi arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılması haqqında Saziş" təsdiqlənib.

Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərməlidir.

Qeyd edək ki, saziş 2026-cı il mayın 21-də Bakı şəhərində imzalanıb.

## İlk müəllimlər qurultayının keçirilməsindən 120 il ötür



Bax səh.5

## Hansı ixtisasın gələcəyi var?



Hər il bu dövrdə minlərlə gənc universitet və ixtisas seçimi qarşısında qalır. Evlərdə siyahılar hazırlanır, keçid balları müqayisə edilir, tanışlardan məsləhətlər alınır. Hansı universitet daha prestijlidir? Hansı ixtisasın gələcəyi var?

Bax səh.4

## "Xaricdə təhsil almaq arzumuz gerçəkləşdi"

Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin daha iki məzunu – Emil Əliyev və Xanlar İsmayılov "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq hüququ qazanıblar.

Bax səh.4



### Gənclərimiz "Microsoft" və "Adobe" dünya çempionatında Top-10-da

Bax səh.2

### Məllimin hazırlığında əsas keyfiyyətlərdən biri: səriştəlilik

Bax səh.6

### Sakit şagirdlərin səssiz gücü

Bax səh.7

### Yeni biliklər, səmimi dostluqlar və rəngarəng anlar

Bax səh.8

# Elm və təhsil naziri Xankəndidə vətəndaşları qəbul edəcək

**Elm və təhsil naziri Emin Əmrullayev avqustun 28-də Xankəndi şəhərində vətəndaşları qəbul edəcək.**




Qəbulda Xankəndi, Xocalı və Ağdərə sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 14 avqust (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# 2026-2027-ci tədris ili üzrə Dövlət Proqramı qalibləri ilə görüş

**Avqustun 4-də 2026/2027-ci tədris ili üzrə Dövlət Proqramı təqaüdçüsü adını qazanan proqram iştirakçıları ilə görüş keçirilib. ADA Universitetində baş tutan görüşün məqsədi Dövlət Proqramı qaliblərini qarşıdakı təhsil mərhələsinə hazırlamaq, proqram çərçivəsində yaradılan imkanlar və müəyyən edilmiş öhdəliklər barədə məlumatlandırmaq, həmçinin iştirakçıların suallarını cavablandırmaq olub.**





Görüşdə iştirak edən elm və təhsil nazirinin müavini Həsən Həsənli və Dövlət Neft Fondunun icraçı direktorunun müavini Rövşən Cavadov çıxışlarında Dövlət Proqramının ölkəmizin insan kapitalının inkişafındakı rolundan, gənclərə göstərilən etimaddan və proqram iştirakçılarından gözləntilərdən bəhs ediblər.

Daha sonra çıxış edən Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Qədir Xəlilov 2026/2027-ci tədris ili üzrə Dövlət Proqramına qəbulun statistik göstəricilərini təqdim edib. O bildirib ki, təqaüdçülərin seçimi namizədlərin bilik və bacarıqları, motivasiyası, məqsədyönlülüyü və ümumi hazırlıq səviyyəsinin kompleks qiymətləndirildiyi rəqabətli seçim prosesi əsasında aparılır.

Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdir müavini Ayla Həsənova-Məmmədova çıxışında gəncləri xaricdə təhsil aldıqları müddətdə beynəlxalq platformalarda ölkəmiz haqqında həqiqətlərin təbliğində fəal olmağa çağırıb, ictimai müzakirələrdə məsuliyyətli mövqe nümayiş etdirmələrinin əhəmiyyətini vurğulayıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin Avropa ölkələri şöbəsinin müdir müavini Orxan Kərimov isə xaricdə yerli azərbaycanlı icmaları ilə əlaqələrin qurulmasının, ölkəmizin tarixi, mədəniyyəti və müasir inkişafı haqqında düzgün məlumatların çatdırılmasının, eləcə də gənclərin ictimai təşəbbüslərdə fəal iştirakının önəmindən danışıb.

Görüşdə Dövlət Proqramı məzunlarının yeni qaliblərlə təcrübə paylaşımına da yer verilib. Böyük Britaniyanın “Imperial College London” Universitetində “İctimai səhiyyə” ixtisası üzrə təhsil almış Aydan Poladova və Amerika Birləşmiş Ştatlarının “University of Michigan—Ann Arbor” Universitetində “Dövlət idarəetməsi” ixtisası üzrə təhsil almış Raul Məmmədov xaricdə təhsil müddətində qazandıqları akademik və şəxsi təcrübələrini, həmçinin peşəkar inkişaf imkanları ilə bağlı fikirlərini iştirakçılarla bölüşüblər.

Dövlət Proqramı İdarəetmə Qrupunun proqram iştirakçıları ilə iş üzrə mütəxəssisi Nərmin Bünyatova isə xaricdə təhsilə hazırlıq prosesi və növbəti mərhələlərə dair təqdimatla çıxış edib.

Görüş çərçivəsində iştirakçılara xaricdə təhsilə hazırlıq, qarşıdakı mərhələlər və öhdəliklər, ictimai təmsilçilik, eləcə də akademik və peşəkar inkişaf imkanları barədə ətraflı məlumat və tövsiyələr verilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Türkiyə-Azərbaycan Universitetinin ilk rektoru kollektivə təqdim olunub

**Türkiyə-Azərbaycan Universitetinin (TAU) yeni təyin olunmuş ilk rektoru Nəcibə Nəsibova universitet kollektivinə təqdim edilib. Tədbirdə giriş nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev Türkiyə ilə Azərbaycan arasında ali təhsil sahəsində əməkdaşlığın inkişafında Nəcibə Nəsibovanın rolunu vurğulayaraq onu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.**



Türkiyə-Azərbaycan Universitetinin iki ölkənin strateji tərəfdaşlığının təhsil sahəsində ən mühüm layihələrindən biri olduğunu qeyd edən nazir müavini əlavə edib ki, universitetin Himayəçilər Şurası qarşıdakı dövr üçün ali təhsil müəssisəsinin strateji inkişafı, akademik fəaliyyətinin gücləndirilməsi və institusional potensialının artırılması istiqamətində mühüm hədəflər müəyyənləşdirib.

Yeni rektor Nəcibə Nəsibova öz növbəsində universitetin akademik və inzibati heyətini salamlayaraq bildirib ki, Türkiyə-Azərbaycan Universiteti sadəcə yeni nəsil universitet modeli deyil, eyni zamanda Azərbaycan ilə Türkiyə arasında qardaşlığın, ortaq dəyərlərin təcəssümüdür. Rektor göstərilən etimada görə təşəkkürünü ifadə edərək qarşıya qoyulan hədəflərə nail olmaq üçün çalışacağını bildirib.

Qeyd edək ki, Türkiyə-Azərbaycan Universitetinə tələbə qəbulu 2024—2025-ci tədris ilindən həyata keçirilir. Universitetdə bakalavriat səviyyəsində "Kompüter mühəndisliyi", "Qida mühəndisliyi" və "Sənaye mühəndisliyi" ixtisasları üzrə mütəxəssis hazırlığı aparılır. "Kompüter mühəndisliyi" ixtisası üzrə tədris Orta Doğu Texniki Universiteti, "Qida mühəndisliyi" üzrə Hacettepe Universiteti, "Sənaye mühəndisliyi" üzrə isə İstanbul Texniki Universitetinin professor-müəllim heyəti tərəfindən həyata keçirilir. Azərbaycan tərəfdən tərəfdaş universitet qismində Azərbaycan Texniki Universiteti prosesdə iştirak edir. Universitetdə təhsil yalnız dövlət sifarişi əsasında və ingilis dilində aparılır.

Hazırda 174 tələbənin təhsil aldığı universitetə bu il üç ixtisas üzrə ümumilikdə 120 plan yeri ayrılıb. Onlardan 60 yer "Kompüter mühəndisliyi", 30 yer "Sənaye mühəndisliyi", 30 yer isə "Qida mühəndisliyi" ixtisası üçün nəzərdə tutulub.

# Özəl məktəbəqədər təhsil müəssisələrinin nümayəndələri ilə maliyyələşmə müsabiqəsilə bağlı görüş keçirilib





**Avqustun 7-də məktəbəqədər təhsil sahəsində valideyn—dövlət—özəl əməkdaşlığı əsasında maliyyələşmə müsabiqəsi ilə bağlı özəl məktəbəqədər təhsil müəssisələrinin nümayəndələri ilə görüş keçirilib.**

Görüşdə elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Elm və Təhsil Nazirliyinin, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq struktur bölmələrinin əməkdaşları iştirak ediblər.

Görüşdə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə məktəbəqədər təhsilin uşaqların inkişafında mühüm rolunu qeyd edib. Bildirib ki, uşağın inkişafının əsas hissəsi məhz erkən yaşlarda formalaşır və bu mərhələyə qoyulan sərmayə gələcəkdə cəmiyyət üçün daha böyük fayda yaradır. Nazir müavini Azərbaycan təhsil sisteminin beynəlxalq qiymətləndirmə nəticələrinin də məktəbəqədər təhsil almış uşaqların sonrakı təhsil göstəricilərinin daha yüksək olduğunu təsdiqlədiyini diqqətə çatdırıb.

Kənan Kərimzadə valideyn—dövlət—özəl əməkdaşlığı əsasında maliyyələşmə mexanizminin özəl sahibkarlar üçün yeni təşviq imkanları yaratmaqla məktəbəqədər təhsilin əhatəliliyinin genişləndirilməsinə xidmət etdiyini bildirib. Qeyd edib ki, məktəbəqədər təhsilin əhatəliliyinin artırılması qarşıya qoyulan əsas hədəflərdəndir və bu layihənin həyata keçirilməsi məktəbəqədər təhsilə çıxış imkanlarının genişlənməsinə müsbət təsir göstərəcək.

Nazir müavini özəl məktəbəqədər təhsil müəssisələrini yeni mexanizmin tətbiqində fəal iştiraka dəvət edib, onların proseslə bağlı təklif və tövsiyələrinin əhəmiyyətini vurğulayıb.

Daha sonra Elm və Təhsil Nazirliyinin Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyeva maliyyələşmə müsabiqəsinin şərtləri və iştirak qaydaları barədə məlumat verib.

Görüş müzakirə və sual-cavab formatında davam edib. İştirakçıların müsabiqənin şərtləri, maliyyələşmə mexanizmi və prosesin təşkili ilə bağlı sualları cavablandırılıb, səsləndirilən təkliflər dinlənilib.

# Gənclərimiz “Microsoft” və “Adobe” dünya çempionatında Top-10-da yer alıblar

**Dünyanın 42 ölkəsindən 310-dan çox gəncin iştirak etdiyi "Microsoft World Championship" və "Adobe World Championship" dünya finallarında Azərbaycan ilk dəfə təmsil olunub. Ölkəmizin iştirakçıları yarışda uğurlu nəticə göstərərək Top-10-da yer almağa nail olublar.**




ABŞ-nin Kaliforniya ştatında keçirilən final mərhələsində Microsoft istiqaməti üzrə UNEC-in II kurs tələbəsi Hüseyn Şükürov 6-cı, Bakı Ali Neft Məktəbinin Prezident təqaüdçüsü Nəzrin Miriyeva isə 9-cu yeri tutub.

Yarışın nəticələrini dəyərləndirən Hüseyn Şükürov ilk iştirakda 6-cı yeri tutmağın əhəmiyyətini vurğulayaraq, bunu beynəlxalq təcrübə və peşəkar inkişaf baxımından mühüm mərhələ kimi qiymətləndirib.

Nəzrin Miriyeva isə Top-10-da yer almağın sevindirici nəticə olduğunu qeyd edib və bunun Azərbaycan gənclərinin rəqəmsal bacarıqlar üzrə beynəlxalq rəqabətdə uğurlu çıxış edə bildiyini göstərdiyini vurğulayıb.

Hər iki çempionatın Azərbaycandakı rəsmi təmsilçisi olan "Baku Design Academy" tərəfindən təşkil edilən milli seçim mərhələsində 500-dən çox gənc iştirak edib. Hazırlıq prosesinin yekununda 50 iştirakçı beynəlxalq sertifikat əldə edib, ən yüksək nəticə göstərən 6 nəfər isə ABŞ-də keçirilən dünya finalına vəsiqə qazanıb.

ABŞ-nin Kaliforniya ştatında keçirilən final mərhələsində Azərbaycanı Adobe istiqaməti üzrə Məryəm Seyidova, Səbinə Nuriyeva və Səid Mövlamov, Microsoft istiqaməti üzrə isə Adil Seyidov, Hüseyn Şükürov və Nəzrin Miriyeva təmsil edib.

Layihə dövlət və özəl sektorunun tərəfdaşlığı çərçivəsində həyata keçirilib. Microsoft istiqaməti üzrə Gənclər və İdman Nazirliyi, PAŞA Bank və ASAN İnnovativ İnkişaf Mərkəzi, Adobe istiqaməti üzrə isə Mədəniyyət Nazirliyi və Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi layihəyə dəstək göstərib.

# Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri IV "Maarifçi" tələbə-məzun proqramının iştirakçıları ilə görüşüb

**Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV “Maarifçi” tələbə-məzun proqramı çərçivəsində Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli proqram iştirakçıları ilə görüş keçirib.**



Görüşdə çıxış edən Nicat Məmmədli Fondun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr və təhsil ekosisteminin inkişafına xidmət edən strateji təşəbbüslər barədə ətraflı məlumat verib. O, təhsil sahəsində innovativ yanaşmaların təşviqi, insan kapitalının inkişafı və tərəfdaşlıqların genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Görüş zamanı təhsildə rəqəmsal transformasiya və süni intellekt texnologiyalarının tətbiqi mövzusunda fikir mübadiləsi aparılıb. Nicat Məmmədli süni intellektin tədris prosesinə inteqrasiyası, fərdiləşdirilmiş öyrənmə imkanlarının genişləndirilməsi, eləcə də gələcəyin əmək bazarında tələb olunan bacarıqların formalaşdırılmasında bu texnologiyaların rolu barədə fikirlərini iştirakçılarla bölüşüb.

Görüş iştirakçıların suallarının cavablandırılması və qarşılıqlı müzakirələrlə davam edib.

Qeyd edək ki, “Maarifçi” tələbə-məzun proqramının əsas məqsədi gənclərin dövlət idarəçiliyi sahəsində praktiki bilik və bacarıqlarının artırılması, onların peşəkar inkişafının dəstəklənməsi və gələcək karyera imkanlarının genişləndirilməsidir. Proqram çərçivəsində seçilmiş 53 iştirakçı Elm və Təhsil Nazirliyinin struktur bölmələri və tabeli qurumlarında, regional təhsil idarələrində, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyində təcrübə keçəcəklər.

# Həvəsləndirmə tədbirləri tətbiq edilən məktəblər üzrə vakansiya seçimi başlayır

**“2026-2027-ci tədris ili üzrə müəllimlərin işə qəbulu üzrə imtahan mərhələsi 14-18 iyul tarixlərində təşkil olunub. Müsabiqənin test imtahanı mərhələsi cari ildə yüksək davamiyyətlə başa çatdırılıb”.**




Bunu jurnalistlərə açıqlamasında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin İmtahan və qiymətləndirmə şöbəsinin müdiri Nurlan İsmayılbəyli deyib.

Onun sözlərinə görə, müsabiqənin test imtahanı mərhələsində 32 min 175 namizəd iştirak edib:“Müsabiqədə 96% davamiyyət qeydə alınıb. Müsabiqənin növbəti mərhələsi olan vakansiya seçimi mərhələsi üzrə faktiki yaşayış yerində həvəsləndirmə tədbirlərinin tətbiq olunduğu vakansiyalar üzrə seçim mərhələsinə 8 avqust 11:00-dan etibarən start veriləcək. Mərhələ 10 avqust 11:00-da tamamlanmış olacaq. Burada əsas məqsəd faktiki olaraq rayonlarda yaşayan namizədlər üçün həmin rayonların mərkəzinə, 5 kilometrdən 20 kilometrə qədər məsafədə kəndlərdəki ümumi təhsil müəssisələrinə dayanıqlı kadr təminatının həyata keçirilməsidir. Məlumat üçün qeyd edim ki, ötən il 1519 namizəd bu mərhələdə uğur əldə edərək müəllim adını qazanıblar”.

N.İsmayılbəyli qeyd edib ki, növbəti mərhələdə isə müsabiqənin test imtahanı mərhələsində müvafiq tələbləri ödəyən bütün namizədlərin vakansiya seçiminə start veriləcək:“Avqust ayının ikinci yarısından isə müsahibə mərhələsinə start verilməsi nəzərdə tutulur. Bütün müsahibə iştirakçılarına xatırlatmaq istəyirik ki, vakansiya seçimlərini tamamladıqdan sonra təsdiq etməyi unutmasınlar və seçimləri edən zaman digər namizədlərlə də bağlı məqamları nəzərə alsınlar. Onların yanlış seçimi digər bir neçə ballıq əmsalla geridə qalmış namizədin vakant yerləri tutmasına çətinlik yarada bilər”.

Şöbə müdiri vurğulayıb ki, müəllimlərin işə qəbulu qaydalarına əsasən vakansiya seçimində əvvəlcə şəhid ailəsi üzvləri iştirak edir: “Daha sonra isə digər namizədlər üçün vakansiya seçiminə start verilir. Onu da qeyd etmək yerinə düşər ki, müsabiqədə iştirak etməmiş və vakansiya seçmək imkanı qazanmış şəhid ailələri müsabiqənin minimum tələblərini qarşılayan namizədlərdir. Vakant yerlərlə bağlı onu qeyd etmək lazımdır ki, hazırda dövlət ümumi təhsil müəssisələrində çalışan müəllimlərin 90%-i sertifikatlaşdırma prosesini uğurla tamamlayıb. İlkin növbədə dövlət ümumi təhsil müəssisələrində sertifikatlaşdırma prosesini uğurla tamamlamaları, diaqnostik qiymətləndirmələri nəzərə alınmaqla dərslərin bölgüsü həyata keçirilir. Daha sonra isə yalnız ehtiyac duyulan istiqamətlər üzrə müəllimlərin seçiminə start verilir. O nöqteyi-nəzərdən vakant yerlərin seçimi yalnız yay ayları ilə məhdudlaşmır. Tədris ili ərzində də yeni yaranan vakant yerlərə kadr təminatı həyata keçiriləcək”.

**Rəşid QARAYEV**

# TƏHSİL İNFRASTRUKTURU YENİLƏNİR

## Paytaxtda 7 təhsil müəssisəsində tikinti və əsaslı təmir işləri aparılır

**Yeni tədris ilinə hazırlıq çərçivəsində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 7 təhsil müəssisəsində tikinti və əsaslı təmir işləri aparılır.**

"Azərbaycan müəllimi" xəbər verir ki, hazırda BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 3 məktəbin (57, 68 və 141 nömrəli) sökülərək yenidən tikintisi, 1 məktəbin (İncəsənət Gimnaziyası) və 3 uşaq bağçasının isə (352 nömrəli uşaq bağçası, Nəriman Qəhrəmanov adına körpələr evi-uşaq bağçası, Etibar Ömərov adına uşaq bağçası) əsaslı təmiri davam edir.



Eləcə də, ehtiyac olan digər təhsil müəssisələrində cari təmir və mühəndis-kommunikasiya işləri həyata keçirilir.

Qeyd edək ki, 2025-2026-cı tədris ili ərzində BŞTİ-nin tabeliyindəki 4 məktəbdə (59, 151, 324 və 313 nömrəli) və 2 uşaq bağçasında (101 və 351 nömrəli) yenidənqurma və təmir-bərpa işləri yekunlaşdırılaraq istifadəyə verilib. Bununla yanaşı, 5 məktəbəqədər təhsil müəssisəsi (99, 116, 257, 328 nömrəli və A. Məmmədov adına uşaq bağçası) əsaslı təmirdən sonra fəaliyyətə başlayıb.




REPORTAJ

**Yay tətilinin iki ayını artıq geridə qoymuşuq. Bir aydan sonra ümumtəhsil, ali və orta ixtisas təhsili müəssisələrində ilk zəng çalınacaq. Səhər saatlarından etibarən əlləri çiçəkli birincilər valideynləri ilə məktəbə üz tutacaq, zəng, şagird səsi ilə təhsil ocaqları yenidən canlanacaq, sinif otaqları işıqlanacaq. Bəs görəsən, ümumtəhsil müəssisələri yeni tədris ilinə necə hazırlaşır? Xüsusilə yeni tikilən və əsaslı təmir olunan məktəblər şagirdlərini ağuşuna almağa hazırdır? Şagirdləri bu məktəblərdə hansı yeniliklər gözləyir? “Azərbaycan müəllimi” olaraq bütün bu suallara cavab tapmaq məqsədilə 2 il davam edən əsaslı təmirdən sonra 2026-2027-ci tədris ilində istifadəyə verilməsi nəzərdə tutulan Sumqayıt şəhər 21 nömrəli tam orta məktəbə yollandıq.**

## Əsaslı təmir olunan məktəbdə nələr dəyişib?

Məktəbin darvazasından həyətinə daxil oluruq və gözümüzün önündə müasir, yenicə təmirdən çıxmış orta ümumtəhsil müəssisəsini görürük.

İki korpusdan ibarət tədris ocağının birinci mərtəbəsini gəzməyə başlayırıq və ilk daxil olduğumuz texnologiya kabineti olur. Otaq, demək olar ki, hazır vəziyyətdədir. Partalar, zəruri mebel və avadanlıqlar yerləşdirilsə də məlumat verilir ki, bu, hələ hamısı deyil. Birinci mərtəbədə yerləşən və ən müasir tələblərə cavab verən sinif otaqlarına, məktəbəhazırlıq qrupu üçün nəzərdə tutulan otağa, yeməkxanaya, idman zalına, eləcə də sanitar qovşağa baxış keçiririk. Bu zaman dəhlizdəki arxa girişdən məktəb direktorunun həyətyanı sahədə işləyən ustalara nəzarət etdiyini və tapşırıqlar verdiyini görürük. Yaxınlaşıb görülən işlərlə tanış oluruq. Qeyd olunur ki, hazırda məktəbin arxa həyətyanı sahəsinin asfaltlanmasına başlanılır.

**“Bütün işlərin avqustun sonuna qədər bitirilməsi nəzərdə tutulur”**

Tikinti briqadiri Şahlar Qocayev diqqətə çatdırır ki, köhnə məktəb 2 il öncə dam örtüyündən tutmuş döşəməyə qədər sökülüb və ancaq kubik divarları — hörgüsü qalmışdı: “2024-cü ilin aprel ayından məktəbdə əsaslı təmir işlərinin görülməsinə başlanıldı. Belə ki, fasad yenilənib,yeni qazanxana tikilib, 2 su anbarı quraşdırılıb, santexnika işləri görülüb. Qapılar, pəncərələr, döşəmə dəyişdirilib, aqlay, rəngləmə işləri həyata keçirilib.

Məktəbin stadionu yenidən tikilib, dam örtüyü öncə betonlanıb, montajlanaraq dəyişdirilib. Elektrik avadanlıqları, ana xətləri tamamilə yenilənib, məktəbin çöl hissəsi işıqlandırılıb. İnternet xətləri qoyulub. Yeni su sistemi, kanalizasiya xətti çəkilib. Hazırda layihə üzrə tamamlama işləri gedir. Bütün işlərin avqustun sonuna qədər bitirilməsi nəzərdə tutulur”.

**“Yeni tədris ilində daha keyfiyyətli, uğurlu nəticələrlə təhsilimizin inkişafına töhfə verəcəyik”**

Məktəbin direktoru Qədir Mikayılovla korpusun yuxarı mərtəbələrinə qalxırıq. Direktor təhsil müəssisəsi ilə bağlı bizə məlumat verir. Məktəb 1971-ci ildə tikilib və layihə üzrə 1176 şagird yerlik nəzərdə tutulub. Hazırda məktəbdə 1938 şagirdin təlim-tərbiyəsi ilə 126 müəllim məşğul olur. Təhsil müəssisəsində 38 sinif otağı mövcuddur. Sinif



komplektinin sayı isə 78-dir. Onlardan 62-si Azərbaycan, 16-sı rus bölməsidir.

"Şagirdlərimizin ali məktəblərə qəbulu ötən il 82 faiz təşkil edib.Bu ilin nəticələrinin daha yüksək olacağına ümidvarıq. Buraxılış imtahanlarında şagirdlərimiz Azərbaycan dili, riyaziyyat, xarici dil fənləri üzrə uğur əldə ediblər. 14 məzunumuz 600-dən yuxarı bal toplayıb. Yeni tədris ilində daha keyfiyyətli, uğurlu nəticələrlə təhsilimizin inkişafına töhfə verəcəyik”.

Məktəbdə aparılan təmir-tikinti işləri barədə də bizə geniş məlumat verən direktor qeyd edir ki, təhsil ocağı Elm və Təhsil Nazirliyinin sifarişi ilə əsaslı təmir olunur: “Məktəbimizdə əvvəllər məktəbəhazırlıq qrupu olmayıb. İndi isə çox gözəl məktəbəhazırlıq otağı hazırlanıb və balacaların yolunu gözləyir. Ən müasir tələblərə cavab verən akt zalı, elektronlaşmış kitabxana, müəllimlər, psixoloq və tibbi heyət üçün otaqlar, biologiya, fizika, kimya laboratoriyaları, gənclərin çağırışaqədər hazırlığı, texnologiya, “Rəqəmsal bacarıqlar” kabinetləri yaradılıb.

Parta və avadanlıqların bir hissəsi gətirilib, digər hissəsi isə sentyabrın 15-nə qədər təmin olunacaq. Bütün otaqlar işıqlandırılıb, internet xətti çəkilib.Məktəbin su problemi həll olunub. Məktəbimizdə 2020-ci ildən inklüziv sinif fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün ayrıca sanitar qovşaq istifadəyə verilib”.

**“Bu gözəl şərait üzərimizə daha böyük məsuliyyət qoyur”**

21 nömrəli tam orta məktəbin tədris işləri üzrə direktor müavini Sənəm Məmmədova məktəbdə aparılan əsaslı təmir və yenidənqurma işləri ilə bağlı təəssüratlarını bizimlə bölüşərək bildirir ki, yeni tədris ilindən büsbütün yenilənən təhsil ocağında fəaliyyət göstərəcəklər:

"Bu, müəllim və şagirdləri sevindirir. İşıqlı, səliqəli və müasir standartlara uyğun təchiz olunmuş sinif otaqları şagirdlərimizin dərsə marağını və motivasiyasını artıracaq, müəllimlərimizin isə daha böyük həvəslə fəaliyyət göstərməsinə stimul verəcək. Sinif otaqlarından fənn kabinetlərinə, geniş dəhlizlərdən idman zalına qədər məktəbin hər bir guşəsi şagirdlərimizin rahatlığı, təhlükəsizliyi və keyfiyyətli təhsil almaları üçün yüksək zövqlə yenilənib. Bu gözəl şərait bizə yalnız qürur hissi yaşatmır, eyni zamanda üzərimizə daha böyük məsuliyyət qoyur”.

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**



# Universitet seçimi artıq bütün həyatın seçimi deyil

**Hər il bu dövrdə minlərlə gənc universitet və ixtisas seçimi qarşısında qalır. Evlərdə siyahılar hazırlanır, keçid balları müqayisə edilir, tanışlardan məsləhətlər alınır. Hansı universitet daha prestijlidir? Hansı ixtisasın gələcəyi var? Hansı sahədə iş tapmaq asandır? Bütün bunların arxasında başa düşülən bir narahatlıq var. Gənclər və onların ailələri veriləcək qərarın bütün gələcəyi müəyyənləşdirəcəyinə inanırlar. Halbuki universitet seçimi vacib olsa da, insanın bütün həyatını müəyyən edən deyil. Peşələr dəyişir, sahələr inteqrasiya olunur, yeni işlər yaranır, texnologiya bu dəyişimi daha da sürətləndirir. Belə bir dünyada 17 yaşında verilən qərarı insanın gələcəyinə verilmiş hökm kimi qəbul edə bilmərik.**

### Gənclər çox vaxt gözləntiləri seçirlər

Universitet seçimi zamanı qarşılaşdığımız problem yanlış ixtisas seçimindən daha dərindir. Gənclər çox vaxt özlərini kifayət qədər tanımadan başqalarının onlar üçün qurduğu gələcəyi seçirlər.

Bir gənc hüquqşünas olmaq istədiyini deyir, amma məlum olur ki, bunu ailəsi istəyir. Digəri yüksək bal topladığı üçün daha aşağı keçid balı olan ixtisası seçməyi balını "xərcləmək" hesab edir. Başqası texnologiyaya yönəlir, çünki hamı bu sahədə imkanların olduğunu deyir. Amma onun həmin sahəyə həqiqi marağının olub-olmadığını heç kim soruşmur.

Burada gəncləri qınamaq ədalətli deyil. Biz onlardan özlərini tanımalarını gözləyirik. Amma məktəb illərində onlara özlərini tanımaq üçün nə qədər imkan vermişik?

Onları düzgün cavabları tapmağa, qiymət almağa və imtahan verməyə hazırlamışıq. Müxtəlif sahələri sınamaq, real layihələrdə iştirak etmək, fərqli peşələri yaxından görmək və səhv etmək üçün isə çox az imkan yaratmışıq.

Sonra qarşılarına yüzlərlə ixtisas adı qoyub deyirik: "İndi gələcəyini seç".






### Valideynlərin niyyəti doğru, xəritələri isə köhnədir

Valideynləri də günahlandırmaq düzgün olmaz. Hər bir valideyn övladının təhlükəsiz və uğurlu həyat yaşamasını istəyir. Onlar bildikləri ən etibarlı yolu göstərməyə çalışırlar: Yaxşı universitetə daxil ol. Prestijli ixtisas seç. Diplomunu al. Sabit bir iş tap. Həyatını qur.

Bu yol xəritəsi uzun müddət işləyib. Valideynlərin böyüdüyü dünyada universitet diplomu ciddi üstünlük yaradırdı, insan bir peşə seçib uzun illər həmin sahədə çalışa bilirdi. Bugünkü gənclər isə tamam başqa dünyada yaşayacaqlar. Valideynlər yanlış istiqamət göstərmirlər. Sadəcə dəyişmiş ərazi üçün köhnə xəritədən istifadə edirlər.

Dünya dəyişir, uğur haqqında təsəvvürümüz isə eyni qalır.

### Bir ixtisasın ömrü insan ömründən qısadır

Universitet seçərkən gənclərin çoxu bir peşə adı seçdiyini düşünür. Halbuki heç bir universitet proqramı insanı qarşıdakı 40 ilin bütün dəyişikliklərinə hazırlaya bilməz. Bu gün öyrənilən konkret alətlərin və texniki biliklərin bir hissəsi bir neçə ildən sonra köhnələcək. Hətta peşənin adı eyni qalsa belə, onun daxilində görülən işlər dəyişəcək.

Buna görə universitetin ən böyük vədi yalnız müəyyən bir peşəyə hazırlamaq olmamalıdır. Universitet insana düşünməyi, öyrənməyi, araşdırmağı, sual verməyi, fikrini ifadə etməyi, əməkdaşlıq etməyi və yeni vəziyyətlərə uyğunlaşmağı öyrətməlidir.Konkret bilik vacibdir. Amma o biliyi yeniləyə bilmək daha vacibdir.

Əslində bizlər, gənclərə ömürlük doğru seçim etdirməyə deyil, seçimlərini yeniləyə biləcək qabiliyyətlər qazandırmağa çalışmalıyıq.

"Code Academy"də illər ərzində minlərlə gəncin inkişaf yolunu müşahidə etmişik. İqtisadiyyat, memarlıq, filologiya və hüquq oxuyub sonradan texnologiyada özünü tapan çoxlu sayda insan görmüşük.

Onların uğurunu ilk seçdikləri ixtisas müəyyənləşdirməyib. Əsas fərqi yeni sahəyə keçmək, sıfırdan öyrənmək, çətinlik qarşısında davam etmək və əvvəlki biliklərini yeni istiqamətdə istifadə etmək qabiliyyəti yaradıb.

Yalnız bazarda tələbat olduğunu eşitdiyi üçün texnologiya seçən, amma bu sahəyə marağı olmayan insanların çətinlik yaşadığını da görmüşük. Perspektivli görünən seçim insanla uyğunlaşmadıqda uğur zəmanəti vermir. İlk seçimin ideal olmaması isə gələcəyi məhv etmir.

### Universitet seçərkən...

Universitet seçərkən proqramın adı və keçid balı vacib məlumatlardır. Amma universitet həm də insanın düşüncə tərzini, çevrəsini və kimliyini formalaşdıran mühitdir.Orada kimlərlə tanış olacaqsan? Müəllimlər tələbəni düşünməyə və sual verməyə təşviq edirmi? Universitet fərqli sahələri sınamaq imkanı verirmi? Məzun şəbəkəsi və əmək bazarı ilə əlaqələr hansı səviyyədədir?

Dörd il ərzində yalnız hansı fənləri oxuyacağın deyil, hansı mühitdə formalaşacağın da vacibdir. Bəzən daha məşhur ixtisası zəif mühitdə oxumaqdansa, daha çox imkan açan universitetdə daha geniş istiqamət seçmək doğru ola bilər.

Hər gəncin yolu universitetdən keçməyə bilər. Kimsə akademik təhsildə, kimsə peşə, texniki ustalıq və ya sahibkarlıq yolu ilə inkişaf edir. Universitet oxumamaq uğursuzluq deyil. Real bacarıq qazanmadan və özünə istiqamət müəyyənləşdirmədən qalmaq daha böyük riskdir. Beynəlxalq araşdırmanın nəticələrinə görə, işəgötürənlərin 96%-i bacarıq sertifikatlarının namizədin iş müraciətini gücləndirdiyini düşünür.

### İnsan 20 yaşında özünü bir cür tanıya, 30 yaşında isə başqa potensialını kəşf edə bilər

İxtisasını dəyişmək, başqa sahəyə keçmək və ya yenidən başlamaq bəzən uğursuzluq kimi qəbul edilir. Halbuki özünə uyğun olmayan istiqaməti görüb dəyişmək qərarsızlıq deyil. Bu, özünü daha yaxşı tanımağın nəticəsi ola bilər.

İnsan 20 yaşında özünü bir cür tanıya, 30 yaşında isə başqa potensialını kəşf edə bilər. Əsas məsələ heç vaxt səhv etməmək yox, yanlış və ya natamam seçimdən sonra yeni istiqamət qura bilməkdir.

### Süni intellekt seçdiyim sahəyə necə təsir edəcək?

Bu il ixtisas seçən gənclərin qarşısında əvvəlki nəsillərdə olmayan başqa bir sual da var: Süni intellekt seçdiyim sahəyə necə təsir edəcək?

Bu, vacib sualdır. Amma sualı yalnız "hansı peşələr yox olacaq?" formasında vermək kifayət deyil. Süni intellekt bütün peşələri aradan qaldırmaya bilər. Amma demək olar ki, bütün peşələrin icra edilmə formasını dəyişəcək.

Proqramçı, hüquqşünas, dizayner, müəllim, marketinq mütəxəssisi, həkim və mühəndis öz işini əvvəlki kimi görməyəcək. Təkrarlanan işlərin bir hissəsi avtomatlaşacaq, bəzi bacarıqların dəyəri azalacaq, yeni bacarıqlara ehtiyac yaranacaq.

"Coursera"nın 2026-cı il üzrə "Job Skills Report" hesabatında generativ süni intellekt, yəni məzmun yaradan süni intellekt alətləri üzrə təhsilalanlar arasında tənqidi düşüncə kurslarına qeydiyyatın bir ildə 185% artdığı göstərilir. Data, IT, proqram təminatı və məhsul inkişafı sahələrində də eyni bacarığa maraq sürətlə yüksəlib. Bu tendensiya göstərir ki, texnologiya gücləndikcə insan mühakiməsinin dəyəri azalmaq əvəzinə artır.

Ona görə gəncin sualı yalnız "bu peşənin gələcəyi varmı?" olmamalıdır. Texnologiya dəyişdikcə özümü yeniləyə biləcəyəmmi? Süni intellektlə rəqabət aparacağam, yoxsa ondan istifadə edərək daha dəyərli nəticələr yaradacağam? Seçdiyim istiqamət məndə problem həlletmə qabiliyyətini inkişaf etdirəcəkmi?

Gələcəyin ən təhlükəsiz peşəsini tapmaq mümkün olmaya bilər. Amma gələcəyə uyğunlaşa bilən insan yetişdirmək mümkündür.

### Gəncə yalnız "özünü tanı" demək kifayət deyil

Gənclərə özlərini tanımağı məsləhət görmək asandır. Amma özünü tanımaq yalnız düşünməklə baş vermir. İnsan özünü təcrübə vasitəsilə tanıyır.

Müxtəlif sahələri sınamaq, layihələrdə iştirak etmək, peşəkarlarla görüşmək, qısa təcrübə proqramlarına qoşulmaq, nəsə yaratmaq və bəzən uğursuz olmaq lazımdır.

Gəncdən "nə olmaq istəyirsən?" soruşmaq əvəzinə, ona fərqli işlərin necə göründüyünü göstərməliyik. "Hansı ixtisası seçəcəksən?" sualından əvvəl "hansı problemlər səni maraqlandırır?" sualını verməliyik.

Valideynin vəzifəsi övladının yerinə qərar vermək deyil. Onun məlumatlı qərar verə bilməsi üçün imkan, təcrübə və təhlükəsiz mühit yaratmaqdır.

### Seçiminizə ciddi yanaşın, araşdırın

Bu gün universitet seçimi edən gənclərə demək istədiyim budur: "Seçiminizə ciddi yanaşın, araşdırın. Universitetləri və proqramları müqayisə edin. Əmək bazarını, texnologiyanın təsirini və gələcək imkanları nəzərə alın. Verəcəyiniz qərarı həyatınızın geri dönməz hökmünə çevirməyin. Ailənizə qulaq asın, amma onların qorxularını öz arzularınız hesab etməyin. Bazarın ehtiyaclarını öyrənin, amma yalnız bazarın dəbinə görə seçim etməyin. Öz maraqlarınıza, bacarıqlarınıza və hansı mühitdə inkişaf etdiyinizə də baxın".

Valideynlərə isə demək istədiyim budur: "Övladınıza öz dövrünüzdə uğur gətirən yolu məcburən təkrarlatmağa çalışmayın. Onun üçün qərar vermək əvəzinə, öz qərarını verməyə hazırlaşmasına kömək edin. Çünki sizin təcrübəniz çox dəyərlidir, amma onun yaşayacağı dünya sizin böyüdüyünüz dünya olmayacaq".

### Gələcəyin qalibləri

Gələcəyin qalibləri 17 yaşında hər şeyi doğru seçənlər yox, 30, 40 və hətta 50 yaşında yenidən öyrənə, dəyişə və özlərinə yeni yol qura bilənlər olacaq.

Universitet, ixtisas seçimi vacibdir. Amma insanın bütün həyatını müəyyən edən seçim deyil. Çünki həyat bir seçimlə qurulmur. Seçimlərini yeniləyə bilmək qabiliyyəti ilə qurulur.

**Ülvi ASLANOV,**
**"Code Academy"nin qurucusu, təhsil və innovasiya sahibkarı**

# DP qalibləri

## "Xaricdə təhsil almaq arzumuz gerçəkləşdi"

**Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin daha iki məzunu — Emil Əliyev və Xanlar İsmayılov "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq hüququ qazanıblar.**

### "Keyfiyyətli mühəndislik təhsili üçün seçimim Türkiyə oldu"



**Emil Əliyev "Azərbaycan müəllimi"nə deyir ki, nəticəni öyrəndiyi an uzun müddət çəkdiyi zəhmətin hədər getmədiyini anlayıb və bunun sevincini yaşayıb.**

İlk uğurunu Respublika fənn müsabiqələrində qazanıb: "VI sinifdə məktəbimizin direktorunun təşəbbüsü ilə Respublika fənn müsabiqələrinə qatılmağa qərar verdim. Müsabiqədə riyaziyyat fənni üzrə gümüş medal qazandım. VII sinifdə isə kimya fənni üzrə qızıl medala layiq görüldüm".

Emil Əliyev bildirir ki, proqramlaşdırmaya marağı isə "Azercell Cup" yarışmasından sonra yaranıb: "Azercell Cup" yarışmasında iştirak etdim və III yerə layiq görüldüm. IX və X siniflərdə Respublika fənn olimpiadalarında informatika fənni üzrə ölkə üçüncüsü oldum".

O, IX sinif buraxılış imtahanlarında 300 bal toplayaraq ölkə birincisi olub. Məzun bu il beynəlxalq imtahanlarda da yüksək nəticələr əldə edib. Emil Əliyev yalnız akademik fəaliyyətlə kifayətlənmədiyini söyləyir: "Şəxsi inkişafım üçün müxtəlif könüllülük proqramlarında iştirak etmişəm. ASAN Xidmətdə iki ay, eləcə də yarış və çempionatlarda könüllü kimi fəaliyyət göstərmişəm".

Xaricdə təhsil almaq arzusu məktəb illərində formalaşıb: "Liseyimizin xaricdə təhsil alan məzunlarını gördükcə məndə də dünyanın nüfuzlu ali məktəblərindən birində ali təhsil almaq həvəsi yarandı. Onların qəbul xəbərlərini alarkən yaşadıqları sevinci görmək məni də motivasiya edirdi".

Emil Əliyev Türkiyənin Bilkent Universitetinin "Kompüter mühəndisliyi" ixtisasına qəbul olunduğunu deyir: "Son illərdə Türkiyənin mühəndislik və texnologiya sahəsində sürətli inkişafı hər kəsə məlumdur. Buna müdafiə sənayesində əldə olunan uğurları nümunə göstərmək olar. Məhz buna görə keyfiyyətli mühəndislik təhsili üçün seçimim Türkiyə oldu".

Gələcək planlarından danışan Emil Əliyev əsas məqsədinin süni intellekt və kompüter mühəndisliyi sahəsində ixtisaslaşmaq olduğunu söyləyir: "Əsas karyera hədəfim süni intellekt və kompüter mühəndisliyi sahəsində tanınmış mütəxəssis olmaqdır. Gələcəkdə Azərbaycanda beynəlxalq səviyyədə rəqabət apara biləcək texnologiya startapı qurmaq və ölkəmizin rəqəmsal ekosisteminə töhfə vermək istəyirəm".

Dövlət Proqramının gənclər üçün böyük imkanlar yaratdığını vurğulayan Emil Əliyev qeyd edir ki, proqram gənclərə dünyanın nüfuzlu universitetlərində təhsil almaq imkanı yaradır. Xüsusilə, maliyyə imkanları məhdud olan, lakin potensiallı gənclər üçün bu, çox əhəmiyyətli fürsətdir.

### "Adımı qaliblər siyahısında görəndə..."



**Türkiyənin Bilkent Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil alacaq digər məzunumuz Xanlar İsmayılov bildirir ki, Dövlət Proqramının nəticələri açıqlanarkən yaşadığı sevinc hisslərini sözlə ifadə etməkdə çətinlik çəkir: "Dövlət Proqramının nəticələri açıqlananda və adımı qaliblər siyahısında görəndə sevincimin həddi-hüdudu yox idi".**

Bu nailiyyətinin təməlində orta təhsil illərində qazandığı uğurlar durur: "VI sinifdən etibarən olimpiadalara maraq göstərməyə başladım. Həmin vaxta qədər informatika və riyaziyyat fənlərindən yüksək nəticələr göstərirdim. Proqramlaşdırma sahəsi mənə maraqlı gəlməyə başladı. Güclü məntiqi düşüncəm informatika sahəsində uğur qazanacağıma inam yaratdı. Elə VI sinifdə oxuyarkən Respublika fənn müsabiqələrində informatika fənni üzrə qızıl medala layiq görüldüm. Respublika fənn olimpiadalarında informatika üzrə IX sinifdə birinci, X sinifdə üçüncü, XI sinifdə isə ikinci yeri tutdum".

Xaricdə təhsil almaq qərarını Respublika fənn olimpiadasındakı uğurundan sonra verib: "Bilkent Universitetində "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil alacağam. Bu universitet kompüter mühəndisliyi sahəsində ən güclü ali təhsil müəssisələrindən biridir".

Xanlar İsmayılov Dövlət Proqramının gənclər üçün əvəzsiz imkanlar yaratdığını qeyd edir: "Dövlət Proqramı xaricdə təhsil almaq istəyən gənclərin qarşısındakı maddi maneələri aradan qaldırır və gələcəkdə Azərbaycan üçün faydalı işlər görəcək peşəkar mütəxəssislərin yetişməsinə böyük dəstək verir".

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# İlk müəllimlər qurultayının keçirilməsindən 120 il ötür...

**Azərbaycanda pedaqoji fikrin inkişafı, çoxminlik müəllim ordusunun ölkənin və xalqın gələcək inkişafı naminə vahid bir məqsəd — uşaq, yeniyetmə və gənclərin təlim-tərbiyəsi ətrafında birləşdirilməsində, tədrisin faydalı forma və metodlarının işlənib hazırlanması və həyata keçirilməsində müəllimlər qurultaylarının böyük rolu olmuşdur. Müəllimlər qurultayı təhsil sisteminin təkmilləşdirilməsinə xidmət edən, müəllimlərin peşəkar inkişafına, təcrübə mübadiləsi, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş mühüm tədbirlərdəndir. Tarixən keçirilən ilk müəllimlər qurultaylarından bu gününə qədər davam edən qurultaylar təhsil sahəsində gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə, müəllimlərin əməkdaşlığına, mövcud problemlərin və onların həlli yollarının müzakirəsinə, tədris proqramları, qiymətləndirmə və təlim metodları ilə bağlı qərarların qəbul olunmasına xidmət etmişdir.**

**Azərbaycan təhsil tarixinə müəllimlərin ilk qurultayı kimi daxil edilmiş Qafqaz müsəlman müəllimlərinin Bakıda çağırılan I qurultayından artıq 120 il keçir. O dövrdə belə bir qurultayın çağırılması Azərbaycan ictimai pedaqoji fikir tarixində mühüm hadisə sayıla bilər. Qurultayda müzakirə olunan məsələlər, qəbul edilmiş qərarlar, onun bu günlə səsləşməsi təhsil tarixində xüsusi əhəmiyyət kəsb edir.**

**Azərbaycan təhsil tarixini yaşadan, onun inkişaf yollarını xronoloji ardıcıllıqla əks etdirən Xalq Təhsili Muzeyində Azərbaycan Müəllimlərinin I Qurultayı ilə bağlı sənəd və materiallar qorunub saxlanılır. Həmin materiallara istinad edərək qurultay haqqında məlumatları oxucuların nəzərinə çatdırmaq istəyirəm.**



## Xalq maarifinin inkişaf tarixindən



### Zaqafqaziya müəllimlərinin I qurultayına seçilmiş komissiya üzvləri

İlk müəllimlər qurultayına hazırlıq işlərinin görülməsi və onun keçirilməsində görkəmli ziyalılarımızın rolunu xüsusi qeyd etmək lazımdır. Həyat və fəaliyyətlərini təhsil və mədəniyyətin inkişafı uğrunda mübarizəyə həsr etmiş maarifçilərimiz cəhalətin qaranlığından xilas olmağın yeganə yolunu, xalqın xoşbəxtlik və tərəqqisini elmdə görmüş, təlim və tərbiyənin həyatla əlaqəsinə böyük əhəmiyyət vermişlər. Birinci qurultayın əsas məramı da məktəbin inkişafına yönələn vəzifələri müəyyənləşdirmək, müəllimləri bir yerə toplayaraq ümumi məqsəd ətrafında birləşdirmək idi.

1906-cı ilin may ayında “Nicat” xeyriyyə cəmiyyətinin qiraətxanasında qurultayın çağırılması üçün təsis komissiyası yaradılmışdır. Komissiyanın tərkibinə H.Zərdabi, N.Nərimanov, Ə.Ağayev, Ə.Cəfərzadə, A.Əfəndiyev, C.Mahmudbəyov, C.M.Hacıbababəyov, M.Əfəndiyev daxil edilmişlər.

Təsis komissiyası may ayından başlayaraq avqustda qurultay açılanadək N.Nərimanovun sədrliyi ilə 11 iclas keçirmişdir. Komissiya üzvləri keçirdiyi iclaslarda rus-müsəlman məktəbləri və dini məktəblərin islahı, mövcud proqramların nəzərdən keçirilməsi, yenilərinin tərtibi və bu əsasda kitabların yazılması, gələcək müəllimlər məclisinə hazırlıq, maddi vəsaitin cəm olunması və digər məsələlərə toxunmuşlar. Müəllimlər komissiyası “Nicat” və “Bakı” xeyriyyə cəmiyyətlərinə müraciət edərək göstərilən vəsaitin bir hissəsini, yəni 3 yüz manatı “Nicat”, 5 yüz manatı isə Bakı xeyriyyə cəmiyyətinin öz öhdələrinə götürməsini rica etmişlər. Qurultay ərəfəsində komissiya üzvləri ayrı-ayrı şəhərlərə səfər edərək qurultayın çağırılması və keçirilməsi ilə bağlı məsələləri həll edir, mətbuatda çıxış edir, qurultayın məqsəd və məramlarını aydınlaşdırırdılar. 1906-cı il avqust ayının 15-dən başlayıb axırınadək davam edəcək Azərbaycan müəllimlərinin I Qurultayına Qafqazın hər yerindən təlim-tərbiyə işlərinə meyilli vətənpərvər müəllimlər dəvət olunmuşdur.

### Qurultay materiallarının fotosurəti

H.Zərdabi və N.Nərimanovun sədrliyi ilə keçən qurultay təhsilin vacibliyi prinsipini əsas götürərək xalq məktəbinin aşağıdakı müddəalardan ibarət konkret inkişaf proqramını qəbul etmişdir:

- *məktəb şəbəkəsinin genişləndirilməsi;*
- *ibtidai və orta rus-tatar məktəblərində ana dilinin icbari fənn kimi tədrisi;*
- *yeni dərs proqramının tərtibi;*
- *vahid dərs metodunun hazırlanması;*
- *kənd müəllimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması;*
- *Zaqafqaziya (Qori) Müəllimlər seminariyasının tatar şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsi;*
- *qadın təhsilinin inkişaf etdirilməsi.*

Qurultayın ilk iclası H.Zərdabinin sədrliyi ilə keçirildi. Həmin iclasda ana dili, ilahiyyat və hesab elmi üzrə proqramları və dərs planları müzakirə olunaraq daha təkmil şəkildə ictimaiyyətə təqdim etmək üçün 3 komissiya təşkil edilmişdir. Komissiyaların fəaliyyəti nəticəsində bir sıra təkliflərə baxılmış, ana dilinin mükəmməl tədrisi məsələsinə toxunularaq Qafqaz Maarif müdirinə aşağıdakı müddəaları əhatə edən ərizə təqdim olunmuşdur:

- *türk, müsəlman və qeyri-müsəlman müəllimlərinin hüququnun bərabərləşdirilməsi;*
- *ana dili dərslərinin icbari olması;*
- *şəriət və ana dili dərslərinin miqdarının artırılması;*
- *müəllimlərin məktəblərə təyin edilməsi və ya kənarlaşdırılmasında əhalinin iştirakı.*

Digər iclasda hesab elmi üzrə komissiya tərəfindən tərtib edilmiş 4 illik proqramın bəzi maddələrində dəyişikliklər və əlavələr (rus və müsəlman ölçü və çəki vahidləri, mürəkkəb ədədlər və s.) olunmaqla qəbul edilmişdir.

Qurultay Azərbaycan müəllimlərini milli məktəblərlə bağlı vəzifələri həyata keçirməyə səfərbər etmişdir. Bunların sırasında ən əsası milli dili tədris edən ixtisaslı müəllimlərin hazırlanması idi. Bu da təsadüfi deyildir. Çünki maarif sistemi üçün səciyyəvi olan müəllim çatışmazlığı özünü qeyri-rus məktəblərində daha çox biruzə verirdi. Bu vəziyyət tədris idarəsinə əsas verirdi ki, xüsusən ibtidai məktəblərdə müəllimlik fəaliyyətinə sınaqdan keçmək şərti ilə orta və natamam orta məktəb məzunlarını cəlb etsin.

Kənd məktəblərində vəziyyət daha çətin idi. Məktəblərə rus müəllimləri təyin olunanda yerli əhali övladlarını oraya göndər-

**“Beləliklə, Azərbaycan müəllimlərinin I qurultayında ümumi və icbari təhsilə keçid, ana dilinin öyrənilməsi üzrə proqram və sabit dərs cədvəllərinin hazırlanması, kənd məktəblərində əmək dərslərinin keçirilməsi, ibtidai məktəb şagirdlərinin peşə təlimi, məscidlərin nəzdində olan məktəblərin dövlət tabeliyinə keçirilməsi, milli və dini bayramlarda şagirdlərin dərslərdən azad edilməsinə dair qərarlar qəbul edilmişdir.”**

məkdən çəkinirdi. Amma müsəlman müəllimlərinin işlədiyi məktəblər say etibarilə az olsa da, şagirdlər oraya həvəslə gəlirdilər. O dövrdə müsəlmanın özünə məzhəb və məslək baxımından yaxın olan müəllimlərə rəğbət bəsləməsi təbii qarşılanırdı.

Kənd müəllimlərinin ehtiyacları barəsində F.Ağayev qurultaya müfəssəl bir layihə təqdim etmişdir. Layihə ətrafında müzakirələr olmuşdur. Bu layihədə kənd müəllimlərinin bir çox ehtiyacları aydın və aşkar edilmiş, müəllimlərin məişəti ağır olduğundan maddi ehtiyaclarının artması, kəndlə xəzinə arasında məsafə uzaq olduğundan müəllimlərin aldıqları məvacibin böyük bir hissəsini yol xərclərinə sərf etməsi və bu qüsurun aradan qaldırılması göstərilmişdir. Bununla bərabər onların mənəvi ehtiyacları da qeyd edilmişdir:

- *müəllimlərə fayda verən kitab və jurnalların yoxluğu;*
- *türk və qeyri-şərq dillərində olan tədris vəsaitlərinin məktəb kitabxanasında olmaması;*
- *müəllimlərin siyasi mətləblərdən bixəbər qalmaları;*
- *onların ruhanilərlə dini cəhətdən yaranan mübahisələri və fikir ayrılığı;*
- *məktəblərin poçtla əlaqələrinin lazımi səviyyədə olmaması və yolların təhlükəli və pis vəziyyəti.*

Şübhəsiz ki, bütün bunlar həllini gözləyən problemlər sırasında idi və onların aradan qaldırılması yolları qurultayın çoxsaylı qərarlarına daxil edilmişdir.

Qurultayın gedişi və qurultayda qaldırılan məsələlər o dövrün mətbuat səhifələrində geniş materiallar şəklində verilmişdir. “İrşad” qəzetində qurultay barəsində dərc olunmuş materialların surəti Xalq Təhsili Muzeyinin fondunda qorunub saxlanılır.

F.Köçərlinin “İrşad” qəzetinin 1906-cı il tarixli 203-cü sayında dərc olunmuş yazısında göstərilir:

*“Hər il imtahan vaxtları — avqust ayının 25-dən sonuna qədər Zaqafqaziya darülmüəlliminin müsəlman şöbəsinə daxil olmaq üçün hər tərəfdən müsəlman şagirdləri cəm olurlar. İmtahana gələnlərin sayı ilbəil artır. Buna bir neçə səbəb var. Əvvəla, darülmüəllimin təhsil müddəti o qədər uzun çəkmir. Beşillik təhsildən sonra tələbə müəllimlik şəhadətnaməsi alır, öz valideynlərini xərc və zəhmətdən azad edirlər. Bu cəhətə darülmüəllimin kasıb və fəqir adamların övladlarına tərbiyə vermək üçün ən münasib bir məktəbdir. Ən əsas səbəb camaatimizin qəflətdən ayılıb elm və marifin qədri və qiymətini bilməkləridir. Bir vaxt var idi ki, müsəlmanlar öz övladlarının təlim və tərbiyəsinə artıq meyil və rəğbət göstərmirdilər və hətta ibtidadə müsəlman şöbəsi Qoridə açılanda müsəlmanları oxumağa həvəsləndirmək üçün şagirdlərin yol xərcini dəxi xəzinədən verirdilər. Amma indi çoxları istəyirlər ki, öz xərclərilə də olsa uşaqlarına təlim-tərbiyə versinlər və lakin yerin azlığından ona dəxi nail ola bilmirlər. Bu sənə müsəlman şöbəsində açılmış beş vakansiyaya əllidən ziyadə ərizə verilmişdir, hər bir vakansiyaya on ərizə gəlir, elm və mərifətə olan bu qədər həvəs indiyə kimi biz müsəlman qardaşlardan görməmişdik. Bu isə diqqətəlayiq bir əlamətdir. Beş yerə əlli adamın ərizə verməyi buna şəhadət verir ki, bir darülmüəllimin açılsın”.*

Göründüyü kimi qəzet öz oxucularına qurultayda qaldırılan başlıca məsələlər barədə məlumat vermiş, onların geniş kütlələr arasında yayılmasında fəal iştirak etmişdir.

Müəllimlər qurultayının qərarlarında qadın təhsili məsələsinə də xüsusi maddə ayrılmışdır. Müsəlman qadınlarının əsarətdən xilas olması və hüquq bərabərliyi, qadın təhsilinin vəziyyəti ictimaiyyətin diqqətinə çatdırılır, bu sahədəki nöqsanlar tənqid edilirdi. Qadın müəllimlərin kifayət qədər olmaması qadın təhsilinin inkişafına mane olurdu. 1910-cu ildən əsası qoyulan Tağıyevin qız məktəbi, Azərbaycanda rus-tatar məktəbləri pedaqoji kadrlar yetişdirən mərkəz rolunu oynamışdır. Həmin məktəblərin sayca azlığı və tədris proqramının məhdud olmasına baxmayaraq, onlar Azərbaycanda qadın təhsilinin əsasını qoymaqla, milli məktəblər üçün müəllimlərin hazırlanmasında qadınların ictimai fəaliyyətə cəlb edilməsində əhəmiyyətli xidmət göstərmişdirlər.

Beləliklə, Azərbaycan müəllimlərinin I qurultayında ümumi və icbari təhsilə keçid, ana dilinin öyrənilməsi üzrə proqram və sabit dərs cədvəllərinin hazırlanması, kənd məktəblərində əmək dərslərinin keçirilməsi, ibtidai məktəb şagirdlərinin peşə təlimi, məscidlərin nəzdində olan məktəblərin dövlət tabeliyinə keçirilməsi, milli və dini bayramlarda şagirdlərin dərslərdən azad edilməsinə dair qərarlar qəbul edilmişdir.

Azərbaycan müəllimlərinin I qurultayında müzakirə edilən məsələlər sonralar da öz tarixi əhəmiyyətini itirməmiş, əksinə aktuallığını saxlamış, respublikamızda təhsilin qurultaydan başlayan istiqamətləri daha da genişlənmiş, milli və dünyəvi xarakter almışdır.

Onu da qeyd etmək istərdim ki, Qafqaz müsəlman müəllimlərinin Bakıda çağırılan I qurultayı və eləcə də Azərbaycan təhsilinin müxtəlif dövrləri ilə bağlı tarixi məlumatlarla Xalq Təhsili Muzeyinin fondunda əyani şəkildə tanış olmaq olar.

**Zülfiyyə ŞİRİYEVA,**
**Xalq Təhsili Muzeyinin direktoru,**
**pedaqogika üzrə fəlsəfə doktoru**

# MÜƏLLİMİN HAZIRLIĞINDA ƏSAS KEYFİYYƏTLƏRDƏN BİRİ:

# SƏRİŞTƏLİLİK



**Ənvər ABBASOV,**
**Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim**

### Təhsilin prioritet istiqamətlərindən biri

Müasir dövrdə cəmiyyətlərin sosial-iqtisadi inkişaf səviyyəsi, innovasiya potensialı və rəqabət qabiliyyəti bilavasitə insan kapitalının keyfiyyətindən asılıdır. Onun formalaşmasında təhsil sistemi, xüsusilə müəllim amili həlledici rol oynayır. Bu səbəbdən dünyanın inkişaf etmiş ölkələrində müəllim hazırlığı təkcə pedaqoji məsələ deyil, həm də dövlətin strateji inkişaf siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilir. Çünki müəllimin peşə hazırlığının keyfiyyəti yalnız təlim nəticələrinə deyil, həm də gələcək vətəndaşın intellektual, mənəvi və sosial inkişafına, ölkənin elmi, iqtisadi və mədəni potensialına birbaşa təsir göstərir. Elə bu səbəbdəndir ki, ölkəmizdə müəllim hazırlığının təkmilləşdirilməsi dövlət təhsil siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) müəllim hazırlığının müasir tələblərə uyğun yenidən qurulması, müəllim peşəsinin nüfuzunun artırılması, peşəkar inkişaf sisteminin təkmilləşdirilməsi və səriştəyönümlü müəllim modelinin formalaşdırılması əsas strateji hədəflər sırasında göstərilmişdir. Bununla yanaşı, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (2021) sənədində də insan kapitalının gücləndirilməsi ölkənin uzunmüddətli inkişafının əsas istiqamətlərindən biri kimi müəyyən edilmiş, bu məqsədin reallaşdırılmasında keyfiyyətli müəllim hazırlığının əhəmiyyəti xüsusi olaraq vurğulanmışdır.

Pedaqoji təhsil müəssisələrinin fəaliyyətində baş verən yeniliklər də bu strateji məqsədlərin həyata keçirilməsinə xidmət edir. Son illərdə müəllim hazırlığı proqramlarının məzmununun yenilənməsi, kompetensiya əsaslı kurikulumların tətbiqi, pedaqoji təcrübənin genişləndirilməsi və rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası müəllim hazırlığında keyfiyyətin yüksəldilməsinə yönəlmiş mühüm addımlar hesab olunur. Bu dəyişikliklər ali pedaqoji təhsil müəssisələrinin məzunlarını yalnız nəzəri biliklərlə deyil, həm də praktik bacarıqlar, peşə etikası, tədqiqatçılıq mədəniyyəti və innovativ fəaliyyət səriştələri ilə təmin etməyi qarşıya məqsəd qoyur.

Müəllim hazırlığının keyfiyyəti yalnız ali təhsil dövrü ilə məhdudlaşmamalıdır. Müasir pedaqoji nəzəriyyədə müəllimin peşəkar inkişafı fasiləsiz və ömürboyu davam edən proses kimi qəbul edilir. Məşhur təhsil tədqiqatçısı Darling-Hammondun qeyd etdiyi kimi, müəllim peşə fəaliyyətinə başladıqdan sonra da yeni bilik və bacarıqlar əldə etməli, dəyişən kurikulum tələblərinə uyğunlaşmalı, müasir tədris texnologiyalarını mənimsəməli və öz fəaliyyətini davamlı şəkildə təhlil etməlidir. Müasir təhsil dünyasındakı təcrübələr göstərir ki, bu baxımdan peşəkar inkişaf kursları, mentorluq proqramları, fəaliyyət əsaslı tədqiqatlar (Action Research), peşəkar öyrənmə icmaları (Professional Learning Communities - PLC) və rəqəmsal öyrənmə platformaları müəllimin səriştələrinin inkişafında mühüm rol oynayır.

***HAŞİYƏ.*** *Linda Darling-Hammond 1951-ci ildə ABŞ-da anadan olmuş tanınmış təhsil tədqiqatçısı və pedaqoqdur. O, müəllim hazırlığının keyfiyyətinin artırılması, təhsildə bərabər imkanların yaradılması və şagirdyönümlü təlim yanaşmasının inkişafını əsas ideyaları kimi irəli sürmüşdür. Darling-Hammond uzun illər universitetlərdə fəaliyyət göstərmiş, təhsil islahatlarına mühüm töhfələr vermişdir. Onun ən məşhur əsərlərinə “ Öyrənmək hüququ” The Right to Learn (1997), “Düz dünya və təhsil: güclü müəllim təhsili” Be the Change: Reinventing School for Student Success (2015) daxildir. Elmi fəaliyyəti müasir təhsil siyasətinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.*

Azərbaycan təhsil sistemində son illərdə tətbiq edilən müəllimlərin sertifikatlaşdırılması mexanizmi də peşəkar inkişafın stimullaşdırılmasına xidmət edən mühüm islahatlardan biridir. Sertifikatlaşdırmanın əsas məqsədi müəllimlərin peşə bilik və bacarıqlarını qiymətləndirmək, onların inkişaf ehtiyaclarını müəyyənləşdirmək və davamlı peşəkar inkişaf üçün motivasiya yaratmaqdır. Bu yanaşma müəllimin fəaliyyətinin yalnız nəzarət obyekti deyil, həm də inkişaf prosesinin iştirakçısı kimi qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sertifikatlaşdırmanın nəticələri müəllimlərin özünütəhlil bacarıqlarının formalaşmasına, fərdi inkişaf planlarının hazırlanmasına və tədrisin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

### Beynəlxalq səviyyədə özünü doğrultmuş təcrübələrdən biri

Məlum olduğu kimi, keyfiyyətli müəllim hazırlığının səmərəliliyi baxımından beynəlxalq səviyyədə özünü doğrultmuş təcrübələr vardır. Təhsil sahəsində yüksək nəticələr əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, uğurlu təhsil sistemlərinin əsasında yüksək peşəkarlığa malik müəllim korpusu dayanır. Məsələn, Finlandiyada müəllim peşəsi ən nüfuzlu peşələrdən biri hesab olunur və müəllim hazırlığı ciddi seçim meyarlarına əsaslanır. Bu barədə məşhur təhsilşünas, pedaqoq P. Sahlberg qeyd edir ki, müəllim olmaq istəyən namizədlər yalnız yüksək akademik göstəricilərə görə deyil, həm də tədqiqat aparmaq, analitik düşünmək və pedaqoji prosesə maraq yaratmaq baxımından qiymətləndirilir. Müəllim hazırlığı magistratura səviyyəsində həyata keçirilir və elmi-tədqiqat fəaliyyəti proqramının ayrılmaz tərkib hissəsini təşkil edir.

***HAŞİYƏ.*** *Pasi Sahlberg (1959) Finlandiyanın tanınmış təhsilşünası və pedaqoqudur. O, uzun illər müəllim hazırlığı, təhsil siyasəti və məktəb islahatları sahəsində fəaliyyət göstərmiş, müxtəlif beynəlxalq təşkilatlarda çalışmışdır. Sahlberg təhsildə bərabərlik, müəllim peşəsinin nüfuzu, şagirdyönümlü yanaşma və yüksək keyfiyyətli dövlət təhsilinin vacibliyini müdafiə edir. Onun ən məşhur əsəri “Fin dərsləri“ Finnish Lessons (2011) kitabıdır. Bundan başqa, “Uşaqlara oynamağa icazə ver” Let the Children Play (2019), “Dünya Finlandiyadakı Təhsil Dəyişikliyindən Nə Öyrənə Bilər" What Can the World Learn from Educational Change in Finland” (2021) və b. göstərmək olar. İdeyaları dünyanın bir çox ölkələrində təhsil islahatlarına təsir göstərmişdir.*

Eləcə də Sinqapurun müəllim hazırlığı modeli də dünya miqyasında uğurlu nümunələrdən biri hesab edilir. Bu ölkədə müəllim peşəsi dövlət tərəfindən strateji insan kapitalı kimi qiymətləndirilir. Müəllimlərin peşəkar inkişafı karyera boyu sistemli şəkildə planlaşdırılır, hər bir müəllim üçün fərdi inkişaf trayektoriyası müəyyən edilir və onların davamlı təlimlərdə iştirakı təmin olunur. Məşhur kanadalı təhsilşünas, pedaqoq Michael Fullan qeyd edir ki, təhsildə davamlı keyfiyyət yalnız müəllimin öz peşə inkişafını fasiləsiz şəkildə davam etdirdiyi sistemlərdə mümkündür. Belə yanaşma müəllimin öyrədən olmaqla yanaşı, daim öyrənən peşəkar kimi formalaşmasını da təmin edir.

Son illərdə Estoniya da müəllim hazırlığı sahəsində rəqəmsal transformasiyanın uğurlu tətbiqi ilə diqqəti cəlb edir. Rəqəmsal texnologiyaların pedaqoji məqsədlərlə inteqrasiyası, müəllimlərin rəqəmsal səriştələrinin sistemli inkişafı və məktəblərdə innovativ öyrənmə mühitinin yaradılması bu ölkənin beynəlxalq qiymətləndirmələrdə yüksək nəticələr əldə etməsinə mühüm töhfə vermişdir. Bu təcrübə göstərir ki, müasir müəllimin hazırlığında yalnız fənn biliklərinin deyil, həm də rəqəmsal pedaqogikanın, məlumatların təhlili bacarıqlarının və süni intellekt texnologiyalarından etik istifadə kompetensiyalarının inkişaf etdirilməsi vacibdir.

Yeni təhsil innovasiyalarının tətbiqi və genişlənməsi ölkəmizdə də davam edir. Alimlərimizin tədqiqatlarında səriştələrin mahiyyəti və məzmununa, onların mənimsədilməsi üçün uyğun metodologiyların müəyyənləşdirilməsinə diqqət yetirilir. Təhsil təcrübələrində onun reallaşdırılması və qiymətləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

### Müəllim hazırlığında innovativlik

Müasir müəllim hazırlığında innovativ yanaşmaların tətbiqi də xüsusi aktuallıq kəsb edir. STEAM təhsili, dizayn təfəkkürü (Design Thinking), layihəəsaslı öyrənmə, fəaliyyət əsaslı tədqiqat (Action Research), mikroöyrənmə (Microlearning), qarışıq təlim (Blended Learning) və süni intellekt dəstəkli öyrənmə mühitləri müəllim hazırlığı proqramlarının mühüm komponentlərinə çevrilməkdədir. Bu yanaşmalar müəllimlik iddiasında olanlarda yalnız peşə biliklərini deyil, eyni zamanda problem həll etmə, yaradıcı düşünmə, əməkdaşlıq, refleksiya və innovativ qərarvermə bacarıqlarını inkişaf etdirir.



UNESCO da müəllim hazırlığında rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi üçün pedaqoji innovasiyaların texnoloji yeniliklərlə uzlaşdırılmasını əsas şərtlərdən biri kimi dəyərləndirir.

Beləliklə, həm beynəlxalq təcrübə, həm də Azərbaycan təhsilinin inkişaf istiqamətləri göstərir ki, keyfiyyətli müəllim hazırlığı yalnız ali pedaqoji təhsil müəssisələrinin vəzifəsi deyil, dövlət, cəmiyyət və təhsil müəssisələrinin qarşılıqlı əməkdaşlığı əsasında həyata keçirilən kompleks və davamlı prosesdir. Müəllimin peşəkar inkişafına yönəlmiş məqsədyönlü siyasət, elmi əsaslandırılmış hazırlıq proqramları və innovativ təlim yanaşmaları təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinin əsas təminatlarından biri kimi çıxış edir. Məhz buna görə də müasir dövrdə müəllim hazırlığında əsas diqqət yalnız biliklərin mənimsədilməsinə deyil, peşəkar səriştələrin formalaşdırılmasına yönəldilir.

### Səriştəlilik müəllimin başlıca keyfiyyətidir

Müasir təhsil nəzəriyyəsində və pedaqoji praktikada müəllimin peşəkarlığını müəyyən edən əsas meyarlardan biri onun səriştəlilik səviyyəsidir. Əgər ənənəvi təhsil modelində müəllimin fəaliyyətinin qiymətləndirilməsi, əsasən, onun fənn üzrə biliklərinin həcmi ilə əlaqələndirilirdisə, müasir səriştəyönümlü təhsil yanaşmasında müəllimin peşəkar fəaliyyəti bilik, bacarıq, dəyər, münasibət və şəxsi keyfiyyətlərin qarşılıqlı vəhdəti əsasında dəyərləndirilir. Bu yanaşma müəllimin yalnız öyrədən deyil, həm də öyrənmə prosesini layihələndirən, təhsil mühitini idarə edən, şagirdlərin fərdi inkişafını dəstəkləyən və cəmiyyətin dəyişən tələblərinə çevik uyğunlaşan peşəkar şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur

Pedaqoji ədəbiyyatda "səriştə" (competence) və "səriştəlilik" (competency) anlayışları bir-biri ilə sıx bağlı olsa da, onların məzmununda müəyyən fərqlər mövcuddur. Səriştə konkret fəaliyyət sahəsində uğurlu nəticə əldə etməyə imkan verən bilik, bacarıq, dəyər və təcrübələrin məcmusunu ifadə edir. Səriştəlilik isə həmin səriştələrin real peşə fəaliyyətində məqsədyönlü, yaradıcı və səmərəli tətbiq olunması qabiliyyətidir. Başqa sözlə, müəllimin malik olduğu biliklərin praktik fəaliyyətə çevrilməsi yalnız səriştəlilik səviyyəsinin yüksək olduğu halda mümkündür.

### Müəllimin əsas peşə səriştələri

Müəllimin peşəkar səriştəliliyi bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif kompetensiyaların məcmusundan ibarətdir. Müasir pedaqoji ədəbiyyatda bu səriştələr vahid sistem kimi qiymətləndirilir və onların hər birinin təlim prosesinin keyfiyyətinə özünəməxsus təsir göstərdiyi qeyd olunur. Əslində müəllimin peşəkar fəaliyyətinin səmərəliliyi yalnız bu səriştələrin ayrı-ayrılıqda mövcudluğu ilə bağlı deyildir. Onların inteqrativ şəkildə tətbiq olunması müasir müəllim peşəkarlığının formalaşmasını dəstəkləyir.

İlk növbədə, müəllim yüksək səviyyədə fənni üzrə səriştələrə malik olmalıdır. Dərs dediyi fənnin elmi əsaslarına dərindən bələd olmalıdır. Bu tələb birinci növbədə, müəllimin tədris etdiyi elm sahəsinin məzmununu mükəmməl bilməsini, həmin sahədə baş verən yenilikləri izləməsini və onların təlim prosesinə inteqrasiya etməsini nəzərdə tutur. Bununla yanaşı, müəllim mürəkkəb elmi anlayışları şagirdlərin yaş xüsusiyyətlərinə uyğun şəkildə sadələşdirərək təqdim etməyi bacarmalıdır. Lee Shulman bunu "pedaqoji məzmun biliyi" (Pedagogical Content Knowledge) adlandırır və müəllim peşəkarlığının əsas göstəricilərindən biri kimi təqdim edir.

***HAŞİYƏ.*** *Lee Shulman (1938-2025) amerikalı təhsil tədqiqatçısı və pedaqoqu olmuşdur. O, 1987-ci ildə irəli sürdüyü “Pedaqoji Məzmun Biliyi” (Pedagogical Content Knowledge - PCK) anlayışı ilə müəllimin yalnız fənni bilməsinin kifayət etmədiyini, həmin biliyi şagirdlərə öyrədə biləcək üsulları da mənimsəməsinin vacibliyini göstərmişdir. Şulman uzun illər Stanford University və digər ali təhsil müəssisələrində çalışmışdır. Onun ən məşhur əsərlərinə “Bilik və tədris: yeni isahatın əsasları arasında” Knowledge and Teaching: Foundations of the New Reform (1987), “Anlayanlar: tədrisdə bilik artımı” Those Who Understand: Knowledge Growth in Teaching (1986) və s. nümunə göstərmək olar.*

Müəllimin pedaqoji-metodik səriştəsi, eyni zamanda, təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsi, məzmunun planlaşdırılması, müasir təlim strategiyalarının seçilməsi və şagirdyönümlü öyrənmə mühitinin yaradılması ilə bağlıdır. Müasir müəllim müxtəlif təlim metodlarını yaradıcı şəkildə tətbiq etməyi, layihəəsaslı, probleməsaslı öyrənmə, tədqiqat yönümlü təlim və əməkdaşlığa əsaslanan fəaliyyətlər vasitəsilə şagirdlərin fəal iştirakını təmin etməyi bacarmalıdır.

Müəllimin psixoloji-pedaqoji səriştəsi isə şagirdlərin yaş, fərdi və sosial-emosional xüsusiyyətlərini nəzərə ala, onların motivasiyasının dəstəkləyə və müsbət psixoloji iqlim yarada bilməsi ilə müəyyən olunur. Artıq belə bir pedaqoji yanaşma qəbul edilmişdir ki, müasir məktəbdə müəllim yalnız bilik ötürən şəxs deyil, həm də şagirdlərin emosional rifahını və sosial inkişafını dəstəkləyən mentor rolunu yerinə yetirir. Bu baxımdan emosional intellekt, empatiya, münaqişələrin konstruktiv həlli və inklüziv yanaşma müəllimin peşəkar fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Rəqəmsal transformasiya şəraitində rəqəmsal səriştə müəllimin əsas peşə keyfiyyətlərindən biri kimi tələb olunur. O, müasir pedaqoji mühitin qurulmasında rəqəmsal platformalar, elektron qiymətləndirmə vasitələri, virtual öyrənmə mühitləri və süni intellekt əsaslı alətlərdən pedaqoji məqsədlərə uyğun şəkildə istifadə etməyi bacarmalıdır. Bununla yanaşı, o, şagirdlərdə informasiya təhlükəsizliyi, rəqəmsal etik davranış və media savadlılığının formalaşdırılmasına da uğurla rəhbərlik etməli, müəllimlərin rəqəmsal səriştəsini XXI əsr təhsilinin əsas şərtlərindən biri kimi dəyərləndirməlidir.

Müasir müəllim üçün kommunikativ səriştə də xüsusi əhəmiyyət daşıyır. Təcrübələr də göstərir ki, effektiv ünsiyyət yalnız müəllim və şagird arasında deyil, həm də müəllim-valideyn, müəllim-həmkar və müəllim-cəmiyyət münasibətlərində qarşılıqlı etimadın olmasını tələb edir. Açıq ünsiyyət, aktiv dinləmə, konstruktiv geribildirim (feedback) və əməkdaşlıq mədəniyyəti müəllimin peşəkar nüfuzunu artıran əsas amillərdən hesab edilir.

Müəllimin qiymətləndirmə səriştəsi də təlim prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. Müasir qiymətləndirmə yalnız nəticənin ölçülməsi deyil, həm də öyrənmənin dəstəklənməsi funksiyasını yerinə yetirir. Bu bir həqiqətdir ki, formativ qiymətləndirmə, rubriklər, portfoliolar, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə kimi metodlardan səmərəli istifadə edən müəllimlər şagirdlərin fərdi inkişaf dinamikasını daha obyektiv izləyə bilirlər.

Bununla yanaşı, müasir müəllim tədqiqatçılıq və reflektiv fəaliyyət səriştələrinə də malik olmalıdır. O, həm pedaqoji fəaliyyətini elmi tədqiqlərə, araşdırmalara söykənərək təşkil etməli, bu məsələyə sadəcə bir informasiya ötürən şəxs deyil, tədqiqatçı kimi yanaşmalı, həm də hər addımda özünün irəliləyişlərinin düz və etibarlı olmasına əminlik hasil etməlidir. Donald Schön (1983) müasir müəllimin bu xüsusiyyətlərini dəyərləndirərək məxsusi reflektiv müəllim modelini irəli sürərməklə qeyd etmişdir ki, müəllim öz fəaliyyətinin davamlı təhlilinə nail olmadan peşəkar inkişafını təmin edə bilməz. Çünki bu yanaşma onun reflektiv müəllim olaraq formalaşmasına imkan yaradır.

***HAŞİYƏ.*** *Donald Schön (1930-1997) amerikalı filosof, təşkilat nəzəriyyəçisi və təhsil sahəsində tanınmış alim idi. O, xüsusilə peşəkarların təcrübə zamanı öyrənməsini izah edən “reflektiv praktik” (reflective practitioner) ideyası ilə məşhurlaşmışdır. Schön hesab edirdi ki, mütəxəssislər fəaliyyət zamanı düşünərək problemləri daha səmərəli həll edirlər. Onun ən məşhur əsərlərinə “Peşəkarlar fəaliyyət zamanı necə düşünürlər?” The Reflective Practitioner: How Professionals Think in Action (1983), “Reflektiv praktikantın təhsili” Educating the Reflective Practitioner (1987) və s. daxildir.*

Bu gün müəllim peşəkarlığı tələb edir ki, o həm də müəyyən etik prinsiplərə tabe olsun, demokratik dəyərləri tətbiq etsin, inklüziv və təhlükəsiz təlim mühiti yaratsın, məktəbdə müsbət dəyişikliklərin təşəbbüskarı kimi çıxış etsin. Çünki təhsil liderliyi yalnız inzibati vəzifə daşıyan şəxslərə aid deyildir. Hər bir müəllim öz sinfində və məktəb icmasında liderlik funksiyasını həyata keçirə bilər. Bu baxımdan etik və liderlik müasir müəllimin səriştəliliyinin mühüm komponentləri hesab edilir. Beləliklə, müəllimin peşəkar səriştələri bir-birini tamamlayan və vahid sistem təşkil edən komponentlərdir. Bu səriştələrin harmonik inkişafı müəllimin fəaliyyətinin səmərəliliyini artırmaqla yanaşı, şagirdlərin akademik nailiyyətlərinin yüksəlməsinə, onların XXI əsr bacarıqlarına yiyələnməsinə və təhsilin ümumi keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Məhz buna görə də müasir müəllim hazırlığında əsas məqsəd yalnız bilik vermək deyil, yüksək səviyyədə peşəkar səriştələrə malik müəllim şəxsiyyətini formalaşdırmaqdan ibarətdir.






# Sakit şagirdlərin səssiz gücü

**O, demək olar ki, heç danışmır. Dərsdə nə əl qaldırır, nə də müzakirələrə qoşulur. Amma gözləri ilə dərsi izləyir, hər detalı diqqətlə dinləyir. Bir sual verdim. Sinif susdu. Həmişə aktiv olan şagirdlər cavab tapmadı. Birdən o sakit şagird asta səslə danışmağa başladı. Cavabı o qədər dəqiq və dərin idi ki, sinif bir anlıq sükuta qərq oldu.**

O an bir daha anladım: sakit olmaq zəiflik deyil. Sakitlik bəzən düşüncənin ən güclü formasıdır. Biz müəllimlər bəzən ancaq danışanlara fokuslanırıq. Amma səssiz düşünənləri görmək, onları danışmağa həvəsləndirmək bizim pedaqoji məsuliyyətimizdir.

Bu gün dərsdə yenə onu müşahidə etdim: sinfin ən sakit şagirdini. O, heç vaxt diqqət mərkəzində olmur. Əlini tez-tez qaldırmır. Sözünü ucadan demir. Amma gözləri danışır. Baxışlarında sual, düşüncə və axtarış var.

**Araşdırmalar göstərir ki, sakit şagirdlər çox vaxt:**

- *dərin məntiqi təhlil bacarığına;*
- *yüksək konsentrasiya qabiliyyətinə;*
- *uzunmüddətli diqqət davamlılığına sahib olurlar.*

Belə şagirdlər daha çox analiz edir, düşünərək cavab verir, emosiyalarını açıq nümayiş etdirmir. Sadəcə onlar üçün təhlükəsiz və dəstəkverici mühit lazımdır. Əgər müəllim yalnız aktiv danışanları qiymətləndirirsə, o zaman sinfin böyük potensial hissəsini itirə bilər.

**Sakit şagirdi aktivləşdirmək üçün:**

- *ona düşünmə vaxtı vermək;*
- *yazılı cavab imkanları yaratmaq;*
- *cavab verdikdə pozitiv əks-əlaqə vermək çox təsirli üsullardır.*

Bu gün bir daha anladım ki, müəllim olmaq yalnız danışanı eşitmək deyil, susanı da görməkdir. Çünki, sinfin ən sakit uşağı, bəzən ən dərin düşünən beyinə sahib olur. Bəlkə də gələcəyin alimləri, yazıçıları, liderləri məhz bu səssiz sıralarda oturur.

Uğur yalnız yüksək səslə danışanlara deyil, dərin düşünənlərə də məxsusdur. Sakit şagirdlər görünməyən, lakin çox güclü bir resursdur. Onların səssiz gücünü anlamaq və qiymətləndirmək sinifdə daha balanslı və ədalətli bir mühit formalaşdırmağa kömək edər.

Bu baxımdan müəllimin əsas vəzifələrindən biri sakit şagirdlərin potensialını vaxtında müəyyən etmək və inkişaf etdirməkdir. Onlara öz fikirlərini ifadə etmək üçün şərait yaratmaq, fərdi yanaşma tətbiq etmək və psixoloji dəstək göstərmək təhsil prosesinin səmərəliliyini artırır. Belə yanaşma həm şagirdin özünəinamını gücləndirir, həm də onun sosial və akademik inkişafına müsbət təsir göstərir.

**Şəhla YAQUBLU,**
**Qubadlı rayonu Aslan Atakişiyev adına Muradxanlı kənd tam orta məktəbinin riyaziyyat müəllimi**

# Canlı dərsin sirri

**Bəzən dərsdə elə an olur ki, müəllim danışır, lövhədə sxem çəkilir, şagirdlər dəftərinə köçürür… amma sinifdə səssiz bir boşluq qalır. Sanki məlumat ötürülür, amma... Bir biologiya müəllimi kimi mənim üçün ən böyük sual da bu olub: canlılardan danışdığım dərs niyə bəzən “canlı” keçmir? “Ürəyin quruluşu” mövzusunu tədris edərkən özüm-özümə düşündüm. Ürək həyatın mərkəzi olan orqandır. Amma dərsdə sadəcə terminlərin sadalanması ilə kifayətlənmək düzgün deyil. Qərara gəldim ki, bu dəfə dərs ürək haqqında deyil, “ürəklə” olsun.**

Dərsi sualla başladım: “Əgər ürək danışa bilsəydi, öz işi haqqında bizə nə deyərdi?” Sinifdə əvvəlcə təbəssüm yarandı, sonra düşüncə. Şagirdləri qruplara bölüb hər birinə ürəyin bir hissəsini “canlandırmağı” tapşırdım. Fikirləşdim ki, ürək kimi mürəkkəb bir orqanı təsəvvür etmək uşaqlar üçün çətin ola bilər. Ona görə dərsdə qrup işi təşkil etdim və sadə vəsaitlərdən istifadə edərək ürəyin modelini hazırlamağı tapşırdım. Əvvəlcə tərəddüd edən şagirdlər oldu, amma işə başladıqdan sonra maraq artdı.

Müşahidə etdim ki, adətən sakit olan şagirdlər də qrup daxilində daha fəal davranmağa başladılar. Model üzərində işləyərkən bir-birlərinə sual verirdilər, müzakirə aparırdılar, hətta səhvlərini özləri düzəldirdilər. Təqdimat zamanı terminlərdən əvvəlki dərslərə nisbətən daha düzgün istifadə etdiklərini gördüm. Bu, məni sevindirdi. Onlar yalnız model hazırlamadılar, həm də öz hissələrinin adından danışdılar. Qulaqcıq öz funksiyasını izah etdi, mədəcik “yorulduğunu” dedi, qapaqlar isə “nizam-intizamı qoruduğunu” bildirdi.

Bu fəaliyyət gözlədiyimdən daha artıq nəticə verdi. Adətən cavab verməyə çəkinən şagirdlərin belə çıxış etdiyini gördüm. Terminlər əzbər kimi yox, mənalandırılmış şəkildə səsləndi. Ən vacibi isə sinifdə canlılıq yarandı. Mən izah edən yox, müşahidə edən oldum.

Dərsin sonunda şagirdlərdən soruşdum: “Bu gün dərsdə sizi ən çox düşündürən nə oldu?” Cavablar məni sevindirdi. Onlar artıq ürəyi yalnız anatomik orqan kimi yox, sistemli işləyən bir mexanizm kimi anlayırdılar.

Bu təcrübə mənə göstərdi ki, biologiya dərsində emosional əlaqə qurulduqda öyrənmə daha davamlı olur. Şagird mövzunu öz dünyasına yaxınlaşdırdıqda onu unutmur. Müəllim olaraq mən də anladım ki, metod dəyişmək sadəcə texniki seçim deyil, pedaqoji mövqedir.

Hesab edirəm ki, dərs yalnız məlumat ötürmə prosesi deyil, düşüncəni oyatma mühitidir. Əgər şagird mövzu haqqında düşünürsə, sual verirsə və öz sözləri ilə ifadə edirsə, deməli, öyrənmə baş verir.

Bəlkə də bu dərsdə ən çox dəyişən ürəyin quruluşu haqqında biliklər deyil, mənim dərsə yanaşmam oldu.

**Vüsalə ƏLİYEVA,**
**Yevlax şəhər 9 nömrəli tam orta məktəbin biologiya müəllimi**

# Sinifdə aktiv öyrənmə mühitinin qurulması:

## müşahidələrim, çətinliklər və real nəticələr

**Müasir təhsil mühitində müəllimin əsas vəzifəsi yalnız bilik ötürmək deyil, şagirdlərin öyrənmə prosesində fəal iştirakını təmin edən mühit yaratmaqdır. Uzun müddət ənənəvi dərs modeli — müəllimin izah etdiyi, şagirdlərin isə əsasən dinləyici rolunda qaldığı dərs forması müəyyən nəticələr versə də, şagirdlərin tənqidi düşünmə, problem həlletmə və əməkdaşlıq bacarıqlarının inkişafı baxımından məhdud imkanlara malikdir. Bu səbəbdən son illərdə dərslərimdə aktiv öyrənmə mühitinin sistemli şəkildə qurulmasına xüsusi diqqət yetirməyə başladım. Bu yazıda həmin proses zamanı əldə etdiyim təcrübəni, qarşılaşdığım çətinlikləri və müşahidə etdiyim real nəticələri paylaşmaq istəyirəm.**

Müşahidələrim göstərirdi ki, ənənəvi izahlı dərslərdə şagirdlərin yalnız kiçik bir hissəsi dərsə aktiv şəkildə qoşulur, digərləri isə passiv dinləyici mövqeyində qalırdı. Tapşırıqların icrası zamanı da eyni şagirdlər daha fəal olur, digərləri isə prosesə minimum səviyyədə cəlb olunurdu. Bu vəziyyət həm dərsdə motivasiya səviyyəsinə, həm də öyrənilən materialın uzunmüddətli yadda saxlanmasına mənfi təsir göstərirdi. Problemi həll etmək üçün dərs prosesinin strukturunu dəyişdirməyin zəruri olduğunu anladım.

Aktiv öyrənmə mühitini formalaşdırmaq üçün dərslərimdə bir neçə əsas strategiyanı mərhələli şəkildə tətbiq etməyə başladım.

**1. Kiçik qrup işi modeli:** Şagirdləri 3—5 nəfərlik qruplara bölərək hər qrupa konkret tapşırıqlar təqdim etdim. Qrup daxilində rolların müəyyənləşdirilməsi hər bir şagirdin prosesə cəlb olunmasına kömək etdi. Bu yanaşma xüsusilə əvvəl passiv olan şagirdlərin iştirakını artırdı.

**2. “Düşün — paylaş — təqdim et” strategiyası:** Yeni mövzuların izahından sonra şagirdlərə əvvəlcə fərdi düşünmək üçün qısa vaxt verildi, daha sonra cütlük və ya qrup daxilində müzakirə aparıldı və sonda ümumi sinif qarşısında təqdimat edildi. Bu metod şagirdlərin fikirlərini formalaşdırmasına və onları əsaslandıraraq təqdim etməsinə şərait yaratdı.

**3. Problem əsaslı tapşırıqlar:** Sadəcə nəzəri suallar əvəzinə real həyatla əlaqəli problem situasiyaları təqdim etməyə başladım. Bu tapşırıqlar şagirdlərin yalnız məlumatı xatırlamasını deyil, onu tətbiq etməsini də tələb edirdi. Nəticədə dərslərdə müzakirələrin keyfiyyəti və marağı artdı.

**4. Qısa refleksiya fəaliyyətləri:** Dərsin sonunda şagirdlərdən “Bu gün nə öyrəndim?”, “Hansı hissə mənim üçün çətin oldu?”, “Bu gün öyrəndiklərim həyatın hansı mərhələsində mənə lazım olacaq?” kimi suallara qısa yazılı cavablar istənildi. Bu üsul həm şagirdlərin öz öyrənmə prosesini dərk etməsinə, həm də müəllim olaraq mənim növbəti dərsləri daha düzgün planlaşdırmağıma kömək etdi.

Tətbiq etdiyim metodlar ilk mərhələdə müəyyən çətinliklərlə müşayiət olundu. Qrup işi zamanı sinifdə səs-küyün artması, vaxtın düzgün idarə edilməməsi və bəzi şagirdlərin yenə də passiv qalmağa çalışmasını müşahidə edirdim. Bundan əlavə, aktiv tapşırıqların hazırlanması bir müəllim kimi məndən daha çox planlaşdırma vaxtı tələb edirdi. Bu problemlərin həlli üçün bir neçə addım atdım:

- *qrup işinin qaydalarını əvvəlcədən aydın şəkildə izah etdim və siniflə birlikdə “iş qaydaları” müəyyən etdik;*
- *tapşırıqların icrası üçün dəqiq vaxt çərçivəsi təyin olundu və taymer istifadəsi tətbiq edildi;*
- *qrup daxilində rolların mütəmadi dəyişdirilməsi hər şagirdin müxtəlif funksiyalarda iştirak etməsinə imkan yaratdı.*

Aktiv öyrənmə metodlarının sistemli tətbiqindən bir neçə ay sonra dərslərdə nəzərəçarpacaq dəyişikliklər müşahidə edildi. Əvvəla, şagirdlərin dərsdə iştirak səviyyəsi artdı; müzakirələrdə yalnız bir neçə şagird deyil, sinfin böyük hissəsi fəal iştirak etməyə başladı. İkincisi, şagirdlərin təqdimat və öz fikrini əsaslandırma bacarıqları inkişaf etdi. Onlar cavab verərkən yalnız nəticəni deyil, həmin nəticəyə necə gəldiklərini də izah etməyə daha çox diqqət yetirməyə başladılar. Qiymətləndirmə nəticələrinin müqayisəsi də müsbət dinamikanı göstərdi. Xüsusilə analitik düşünmə tələb edən tapşırıqlarda daha yaxşı nəticələr əldə olundu. Bundan əlavə, sinifdə əməkdaşlıq mühiti formalaşdı; şagirdlər bir-birinə kömək etməyə və birlikdə işləməyə daha açıq oldular.

Bu təcrübə göstərdi ki, aktiv öyrənmə mühitinin qurulması birdəfəlik dəyişiklik deyil, davamlı və mərhələli prosesdir. Müəllim bütün dərsləri eyni anda dəyişdirmək əvəzinə, əvvəlcə kiçik elementlərdən — qısa müzakirələrdən, cütlük tapşırıqlarından başlasa, keçid daha səmərəli olur. Tapşırıqların aydın strukturlaşdırılması, vaxtın düzgün planlaşdırılması və sinif qaydalarının əvvəlcədən müəyyənləşdirilməsi də prosesin uğurlu təşkilində mühüm rol oynayır. Ən vacib məqam isə müəllimin rolunun dəyişməsidir. Aktiv öyrənmə mühitində müəllim yalnız məlumat verən şəxs deyil, öyrənmə prosesini təşkil edən, istiqamətləndirən və dəstəkləyən fasilitator funksiyasını yerinə yetirir. Bu yanaşma həm şagirdlərin müstəqil öyrənmə bacarıqlarının inkişafına, həm də dərslərin daha maraqlı və effektiv təşkilinə imkan yaradır.

Sinifdə aktiv öyrənmə mühitinin yaradılması ilkin mərhələdə əlavə səy və planlaşdırma tələb etsə də, əldə olunan nəticələr bu səylərin tamamilə əsaslı olduğunu göstərir. Şagirdlərin dərsə marağının artması, onların əməkdaşlıq və düşünmə bacarıqlarının inkişafı, həmçinin qiymətləndirmə nəticələrində müşahidə olunan müsbət dəyişikliklər aktiv metodların tədris prosesində mühüm əhəmiyyətini bir daha təsdiqləyir. Müəllimlərin kiçik addımlarla da olsa, dərslərində aktiv öyrənmə elementlərini tətbiq etməsi daha keyfiyyətli və dayanıqlı öyrənmə mühitinin formalaşmasına ciddi töhfə verə bilər.

**Aysel RÜSTƏMOVA,**
**Şəmkir rayon Qaralar kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi, Şəmkir rayon Ağlavaşlı kənd tam orta məktəbinin metodisti**

# "YAY FEST 2026":

## Yeni biliklər, səmimi dostluqlar və rəngarəng anlar

REPORTAJ

**Səhərin ilk şəfəqləri paytaxt Bakını bürüyən zaman şəhərin müxtəlif yerlərindən gələn enerjili və təşəbbüskar gənclər metronun "Gənclik" stansiyası yaxınlığında toplanırdılar. Üzlərindəki təbəssüm, gözlərindəki maraq və həyəcan qarşıda onları gözləyən beş günün unudulmaz keçəcəyindən xəbər verirdi. "YAY FEST 2026"-nın "Müasir şəhərlər və texnologiya" düşərgəsinin ilk macərasına start verən avtobusların qapıları açıldıqda, sadəcə sərnişinlər deyil, həm də yeni dostlar nəqliyyat vasitələrinə daxil olurdu.**




Yolun ilk dəqiqələrindən etibarən avtobuslarda səmimi bir ünsiyyət mühiti formalaşdı. Azərbaycanın fərqli bölgələrindən, müxtəlif ali və orta ixtisas təhsili müəssisələrindən bir araya gələn gənclər eyni məqsəd -öyrənmək, əylənmək və inkişaf etmək ətrafında birləşmişdilər. Yolboyu davam edən fikir mübadilələri, düşərgə proqramı haqqında ehtimallar və təəssüratlar Şamaxıya doğru uzanan yolu sanki daha da qısaldırdı.

Nəhayət, avtobus karvanı Şamaxının gözoxşayan təbiəti ilə əhatələnmiş düşərgə ərazisinə çatdı. Səfərin ilk dəqiqələrindən təşkilatçı heyətin peşəkarlığı hiss olunurdu. Əraziyə daxil olmazdan əvvəl bütün təhlükəsizlik tədbirləri yüksək səviyyədə həyata keçirildi, iştirakçılar növbəli şəkildə qeydiyyatdan keçdilər.

Çadırlara yerləşməzdən öncə təşkilatçılar tərəfindən geniş məlumatlandırma sessiyası təşkil olunmuşdu. Düşərgənin daxili intizam qaydaları, təhlükəsizlik tələbləri və beşgünlük zəngin proqram haqqında detallı məlumatlar gənclərin diqqətinə çatdırıldı. İlk saatlardan etibarən iştirakçılar arasında nizam-intizamla yanaşı, qarşılıqlı əməkdaşlıq və güclü bir komanda ruhunun təməli qoyuldu.

Düşərgənin ilk gününə xüsusi rəng qatan, gənclərin əhval-ruhiyyəsini qaldıran əsas amillərdən biri canlı musiqi oldu. Hələ Bakıdan Şamaxıya doğru uzanan yolda səslənən ritmik və doğma mahnılar uzun yolun yorğunluğunu iştirakçılara tamamilə unutdurmuşdu. Gənclər birgə ifalara qoşulur, alqışlarla musiqiçilərə dəstək olurdular.

Şamaxıda, düşərgənin asudə vaxtı zamanı isə bu musiqi coşqusu daha da böyümüşdü. Musiqiçilərin canlı ifaları düşərgə ərazisini əsl incəsənət meydançasına çevirirdi. Tar, kaman və digər alətlərin ətrafında toplaşan gənclər bir ağızdan sevilən mahnıları oxuyur, günün yorğunluğunu xoş ovqatla geridə qoyurdular. Təkcə dəvətli musiqiçilər deyil, iştirakçı gənclər də öz musiqi istedadlarını nümayiş etdirməkdən çəkinmirdilər. Öz aralarında ifalar edən, oxuyan gənclər asudə vaxtlarını həm səmərəli, həm də əyləncəli keçirirdilər.

Axşam saatlarında düşərgə ərazisində xüsusi həyəcan hökm sürürdü."YAYFEST 2026"-nın rəsmi açılış mərasimi keçirildi. Tədbirdə çıxış edən qonaqlar və təşkilatçılar gənclərin şəxsi inkişafının, milli-mənəvi dəyərlərə bağlılığın, komanda işinin və müasir dünyada fəal vətəndaş mövqeyinin vacibliyini xüsusi vurğuladılar. Rəsmi hissənin ardından təqdim olunan möhtəşəm musiqi proqramı gənclər tərəfindən böyük coşqu və alqışlarla qarşılandı.

Gözəl şam yeməyindən sonra başlayan sərbəst vaxt gənclərə düşərgənin füsunkar mühitini kəşf etmək üçün əlverişli şərait yaratdı. Səmanın ulduzlarla bəzəndiyi gecədə, düşərgənin müxtəlif guşələrində səmimi söhbətlər quruldu, gələcək planlar müzakirə olundu və yüzlərlə xatirə şəkli çəkildi.

Xülasə,"YAYFEST 2026"-nın 4-cü düşərgəsinin ilk günü həm yüksək təşkilatçılıq səviyyəsi, həm də gənclər arasında yaranan səmimi dostluq, əməkdaşlıq və komanda ruhu ilə yadda qaldı.

**Rəşid QARAYEV**


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı

**qeyd olunan kafedralar üzrə vakant professor-müəllim vəzifələrini tutmaq üçün müsabiqə**

## ELAN EDİR:

**Sosial və xüsusi fənlər kafedrası**
**Riyaziyyat və kompüter elmləri kafedrası**
**Dil, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrası**
**Pedaqogika və psixologiya kafedrası**

Müsabiqədə elmi-pedaqoji və ya istehsalat təcrübəsinə, müvafiq elmi ad və dərəcələrə malik olan şəxslər iştirak edə bilərlər. Müraciət edən namizədlərdən aşağıdakılar tələb olunur:

- *kompüterdən(office proqramları-Word, Excel, Powerpoint, Microsoft Teams və s.) istifadə bacarığı;*
- *tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;*
- *Azərbaycan, ingilis dillərində tədris bacarığı;*
- *yüksək peşə-ixisas və mənəvi keyfiyyətlər.*

Sənədlər bu elan qəzetdə və https://shamakhi-adpu.az saytında dərc olunan gündən başlayaraq 30 gün müddətində saat 9.00-dan 17.00-a qədər ADPU-nun Şamaxı filialının İnsan resursları və kargüzarlıq şöbəsində qəbul edilir.

Əlaqə telefonu: (020) 269-61-24

**Ünvan:** *AZ-5600,Şamaxı rayonu, Şəhriyar qəsəbəsi*

**E-poçt:** *adpu.samaxi.filiali@adpu.edu.az*

**Direktorluq**



## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** Mob.: (010) 253-30-86; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6864 **Sifariş:** 1030

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2003-cü ildə Tağıyev Anar Nurşiravan oğluna verilmiş A-121592 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə 2005-ci ildə verilmiş MNB-002421 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Çardaxlı kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Axundova Leyla Nazim qızına verilmiş B-035467 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 109 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Qaçayeva Günay Oruc qızına verilmiş A-774925 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Mansurzadə Firuzə Elmar qızına verilmiş C-183367 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Güləbatlı kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Behbudova Tərlan Əmir qızına verilmiş B-652635 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 207 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Fuladi Orxan Bağır oğluna verilmiş B-675254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Əliyev Nicat Xanhəsən oğluna verilmiş 532911 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 20 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Məmmədova İlhamə İlham qızına verilmiş 150326 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2013-cü ildə Səfərova Gülnar Elyar qızına verilmiş A-020856 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2008-ci ildə Yusubova Yelena Abdulkərim qızına verilmiş BB-I-010108 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Əhmədabad kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Veysəlov Yalçın Aydın oğluna verilmiş A-138250 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Kərimova Nailə Kamran qızına verilmiş B-487761 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2019-cu ildə Salmanov Fərid Şahin oğluna verilmiş C-038453 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Əkbərov Əli Ruslan oğluna verilmiş E-622625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2012-ci ildə Milhacov Orxan İkram oğluna verilmiş B-240363 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2022-ci ildə Şahmuradov Mahmud Ziyəddin oğluna verilmiş C-140488 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Muxax kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Ömərov Azər Mahir oğluna verilmiş E-538153 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Məmmədli Rüfət Mahir oğluna verilmiş E-749869 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Əbdürrəhmanova Nərgiz Rauf qızına verilmiş A-439257 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2023-cü ildə Abbasov Murad Əlimərdan oğluna verilmiş AT-009797 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2012-ci ildə Piriyeva (Baloğlanova) Nigar Adil qızına verilmiş BB-I-019489 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Vüsal Sübhan oğluna verilmiş A-303462 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədov Eldəniz Əsgər oğluna verilmiş A-147695 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Rvarud kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Qurbanov Əskər Bərxuda oğluna verilmiş A-015236 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Qasımova Elza Rövşənovnaya verilmiş C-043917 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 7 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Həmidli Fərid Fazil oğluna verilmiş B-682813 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Əlizadə Münasib Maqsud oğluna verilmiş A-436035 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Murtuzova Aysel Rafiq qızına verilmiş B-061011nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş İmanova (Güləhmədova) Xeyrənsə İlqar qızına verilmiş 060902 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Palıdlı kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Sherıfalıyev Yakuba verilmiş E-630885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 168 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Şıxverdiyeva Kamalə Sahil qızına verilmiş E-801294 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Həsənli Əhməd Asəf oğluna verilmiş E-275606 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Cəlayir kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Dursunəliyev Əflatun Elmir oğluna verilmiş F-146204 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Mirzəyev Qoşqar Məharət oğluna verilmiş A-577093 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Rüstəmova Aytəkin Əbdülağa qızına verilmiş A-298164 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kosacan kənd tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Nəcəfov Mahir Vaqif oğluna verilmiş A-791031 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 30 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Məmmədova Nuranə Elxan qızına verilmiş B-096456 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 115 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Bayramova Sevinc Əlişir qızına verilmiş B-314853 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Pirişib 108 nömrəli Orta Texnki Peşə Məktəbi** (indiki Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1987-ci ildə Əliyev Cəmaləddin Əziz oğluna verilmiş 432129 nömrəli diplom və 005335 nömrəli sürücülük şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2023-cü ildə Nəsibzadə Ramal Süleyman oğluna verilmiş C-193105 nömrəli bakalavr diplomu və diploma əlavə, 2025-ci ildə verilmiş AM-071237 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Rəhmanova Kristina Natiq qızına verilmiş E-103288 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.